31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür!

Gündəlik ictimai-siyasi qəzet

XALQ QƏZETİ

№ 296 (28972) 30 dekabr 2018-ci il, bazar

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

❒ ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsini qəbul edib.***

Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Həməd bin Abdullah bin Səud bin Xudeyr etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın yüksək səviyyədə olduğunu, güclü siyasi əlaqələrin qurulduğunu bildirərək ölkələrimizin bir-birini beynəlxalq təşkilatlarda dəstəkləməsinin bunun parlaq təzahürü olduğunu dedi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı və ədalətli mövqeyini ardıcıl surətdə dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi, ticarət, investisiya sahələrində əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq göstərdiklərini və bu istiqamətdə birgə fəaliyyət həyata keçirdiklərini bildirdi.



Prezident İlham Əliyev Səudiyyə Ərəbistanından ölkəmizə gələn turistlərin sayının sürətlə artmasını əlaqələrimizin gözəl nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edərək Həməd bin Abdullah bin Səud bin Xudeyrin səfir kimi fəaliyyəti dövründə qardaşlıq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr xoş sözlərə görə minnətdarlığını bildirərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O vurğuladı ki, Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir.

Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdi, iqtisadi-ticari, investisiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. O, ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

AZƏRTAC

Prezident İlham Əliyev Braziliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

❒ ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsini qəbul edib.***

Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanın Braziliya ilə əlaqələrə böyük önəm verdiyini qeyd edərək ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Siyasi sahədə əlaqələrin qarşılıqlı anlaşmaya əsaslanaraq tarazlı şəkildə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ticari-iqtisadi əlaqələrin və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyini qeyd etdi. İki ölkə arasında aviasiya sahəsində əməkdaşlığa toxunan dövlətimizin başçısı, həmçinin mədəniyyət və turizm sahələrində də əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirdi.

Prezident İlham Əliyev Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza səfir kimi Azərbaycanda fəaliyyəti dövründə uğurlar arzuladı.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Braziliyanın dövlət başçısının salamlarını Prezident İlham Əliyevə çatdırdı və Azərbaycanda fəaliyyətə başlamasından böyük məmnunluq hissi keçirdiyini qeyd etdi.

Səfir ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparıldığını qeyd edərək iqtisadi, ticarət və digər sahələrdə iki ölkənin mövcud potensialından istifadə edilməsi üçün səylərin artırılmasının zəruriliyini bildirdi. O, ümidvar olduğunu dedi ki, iqtisadi məsələlər üzrə ikitərəfli işçi qrupunun keçirilməsi nəzərdə tutulan növbəti iclası bu istiqamətdə əməkdaşlığın inkişafına töhfə verəcək.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını bildirdi.

Prezident İlham Əliyev Braziliya dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının çatdırılmasını xahiş etdi.

AZƏRTAC

Dinamik inkişaf və mütərəqqi islahatlar strategiyası

▸▸3

Dünya azərbaycanlıları arasında həmrəylik fəaliyyətimizin əsasını təşkil edir

▸▸4

Yeni il ənənələri

▸▸6

Milli birliyimiz və həmrəyliyimiz dövlət müstəqilliyimizin möhkəm təməlidir

▸▸7

Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2018-ci il

Sudan Respublikasının Prezidenti zati-aliləri cənab Ömər Həsən Əhməd əl-Bəşirə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sudan xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2018-ci il

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin vəzifədən azad edilmələri haqqında

Azərbaycan Respublikası Milli Məclisin Qərarı

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsini nəzərə alaraq və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsinlər:

Polad Vəli oğlu Həsənov,
Qabil Neymət oğlu Məmmədov.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

O.ƏSƏDOV
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 28 dekabr 2018-ci il

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1432-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1432-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 331 nömrəli, 15 noyabr tarixli 343 nömrəli, 23 noyabr 360 nömrəli, 10 dekabr tarixli 384 nömrəli, 18 dekabr tarixli 409 nömrəli və 20 dekabr tarixli 416 nömrəli fərmanları) 4.39-cu bəndində "və mətnində, 486-cı maddəsində" sözləri ", 485.1-ci və 486-cı maddələrində" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2018-ci il

Daxili işlər naziri polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib

❒ ***Dekabrın 29-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Daxili İşlər Nazirliyinin (DİN) baş idarə, idarə və ərazi polis orqanlarında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.***

DİN-in mətbuat xidmətindən bildiriblər ki, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə general-polkovnik Ramil Usubov ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 630 iddiaçının arasından daha hazırlıqlı olan 445 nəfərin daxili işlər orqanlarında xidmətə qəbul olunması üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlərlə görüşdə çıxış edən nazir əvvəlcə onları qarşıdan gələn əlamətdar bayramlar - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ramil Usubov ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mükəmməl təhsilə, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladıb. Nazir bu istiqamətdə hər zaman konkret addımların atıldığını, hazırkı seçimlərin bu sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti bariz nümunəsi olduğunu bildirib.

Ramil Usubov cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, əmin-amanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini tövsiyə edib.

AZƏRTAC

Yeni ilə aydın, uğurlu gələcək arzusu ilə

Fərhad BƏDƏLBƏYLİ,
Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor

– Hər yeni il igələndə insan qəlbində böyük ümidlərin və kövrək hisslərin yaranmasına səbəb olur. Adətən, bu şən, səbirsizliklə gözlənilən bayram ərəfəsində hər kəs istər-istəməz yaşadığı il boyu dünyada və ölkəsində baş verən əlamətdar hadisələri, əldə olunan nailiyyətləri, sanki sənədli filmin kadrları kimi nəzərdən keçirir. Bu baxımdan 2018-ci il Vətənimiz üçün, sözün tam mənasında, uğurlu və yaddaqalan oldu.

İlk növbədə Azərbaycan Demokratik Respublikasının və Azərbaycan Milli Ordusunun yaranmasının 100 illiyi ilə bağlı tədbirlər keçirildi. Şübhəsiz ki, 1918-ci ildə baş verən hadisələrin böyük tarixi əhəmiyyət kəsb etməsi danılmazdır və bu, Vətənini sevən hər bir insan üçün qürur mənbəyidir. Biz fəxr ilə vurğulayırıq ki, müsəlman Şərqin ilk demokratik respublikanı Azərbaycan yaradıb və məhz burada ilk dəfə olaraq qadınlara seçki hüququ verilib.

Xüsusi olaraq 2018-ci ilin 26 iyul və 15 sentyabrda təntənəli hərbi paradların keçirilməsini qeyd etmək istərdim. Onu da qeyd edək ki, 15 sentyabrda keçirilən hərbi paradda Azərbayacan Ordusunun hissələri ilə yanaşı, Türkiyə Ordusunun nümayəndələri də iştirak etdilər. Bu təntənənin möhtəşəmliyi həm son dərəcə təsirli, eyni zamanda, çox yüksək qürur hisslərinin yaranmasına səbəb oldu. İki qardaş ölkənin sıx birliyi, türk dünyasının aparıcı qüvvəsi kimi çıxış etməsi olduqca vacibdir. Həmin hərbi paradı canlı seyr edən insan kimi mən çox gözəl anlar yaşadım.

Bununla yanaşı, Azərbaycanın 2018-ci ildə siyasət, iqtisadiyyat, kənd təsərrufatı, incəsənət və digər sahələrdə əldə etdiyi nailiyyətlər gözəçarpan və unudulmaz oldu. Prezident İlham Əliyevin uğurlu və ölçülüb- biçilmiş siyasəti göz qabağındadır.

Ölkəmizdə baş verən bu yeniləşmə olduqca önəmli və təqdirəlayiqdir. Nəzərə almaq lazımdır ki, bütün bu gözəçarpan və bəlkə də bir o qədər görünməyən irəliləyişin, ümid verən bəyanat və bəzi fikirlərin elan olunmasının arxasında çox mürəkkəb, səbr və ardıcıllıq tələb edən çoxşaxəli iş durur. Sözsüz ki, bu işi həyata keçirən ölkə Prezidentidir. Burada yalnız onu əlavə etmək olar ki, ölkə rəhbərinin həyata keçirdiyi siyasəti parlaq virtuoz ifaçılıqla müqayisə etmək olar.

Azərbaycan mürəkkəb regionda və faktiki olaraq müharibə şəraitində yaşayan ölkədir. Ən vacibi odur ki, bütün təzyiqlərə və çətinliklərə baxmayaraq, ölkəmiz ildən-ilə güclənir və həyata keçirilən siyasətin nəticələrini parlaq şəkildə nümayiş etdirir. Bu, yaxşı düşünülmüş və ardıcıl həyata keçirilən çoxistiqamətli gərgin işin nəticəsində Azərbaycan bir dövlət kimi artıq dünya birliyində qəbul olunur və onun nüfuzü ildən-ilə artır.

Ölkəmizdə həyata keçirilən ciddi və məqsədyönlü iş hamını, o cümlədən bizi, birbaşa yaradıcılıqla məşğul olan insanları da ruhlandırır. Burada ölkə rəhbərliyi tərəfindən göstərilən hörmət, diqqət və qayğı olduqca vacib və dəyərlidir. Biz yaradıcı insanların borcu hər zaman Azərbaycan mədəniyyətini təbliğ etmək, onun incilərini dünya ölkələrində tanıtmaqdan ibarətdir.

Qarşıdan gələn bayramlar – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik edir, ölkəmizə aydın səma, uğurlu gələcək arzu edirəm.

Hərbi hissələrdə "Açıq qapı" günü keçirilib

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkiblər. Qonaqlar üçün müxtəlif döyüş texnikaları və silahların nümayişi də təşkil edilib.

Hərbi hissələrdə komandanlığın iştirakı ilə keçirilən "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunub, onları maraqlandıran məsələlərin müzakirəsi aparılıb, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçirilib.

❒ ***Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 29-da Müdafiə Nazirliyinin tabeliyində olan bütün hərbi hissələrdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib.***

Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 29 dəfə pozub

❒ ***Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

❒ ***Xalqımız ümummilli lider Heydər Əliyevə təkcə Azərbaycana rəhbərliyinin birinci dönəmində respublikamızın gələcəkdə tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm iqtisadi, elmi-texniki və mədəni zəmin yaratmasına, ölkəmizin yenidən müstəqilliyə qovuşduğu ilk illərdə isə dövlətçiliyi itirilmək təhlükəsindən xilas etməsinə, vətəndaş müharibəsinin qarşısını almasına, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoymasına görə deyil, həm də Azərbaycanı etibarlı əllərə tapşırdığı üçün minnətdardır.***

Dinamik inkişaf və mütərəqqi İSLAHATLAR STRATEGİYASI

Artıq 15 ildir ki, ulu öndər Heydər Əliyevdən "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" dəyərqiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısı kimi xalqımızın böyük inam və etimadını qazanmışdır. Ölkəmizdə bu il aprelin 11-də keçirilən prezident seçkilərində də xalqımız iradəsini bütün dünyaya bəyan etdi: ulu öndər Heydər Əliyev siyasətinin alternativsizliyinə bir daha səs verdi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin ötən müddətdə həyata keçirdiyi məqsədyönlü, müdrik siyasətə, əldə olunmuş mühüm nəticələrə öz yüksək qiymətini diqqətə çatdırdı, daha parlaq gələcəyə, zəfərli sabahlara olan inamını göstərdi.

250 milyard dollarlıq investisiya, 46 milyard dollar strateji valyuta ehtiyatı

Son 15 ildə iqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın azaldılması istiqamətində ardıcıl, sistemli şəkildə strukturinstitusional islahatları özündə cəmləşdirən bir sıra sosial-iqtisadi inkişaf proqramlarının, habelə strateji sənədlərin qəbul edilərək reallaşdırılması Azərbaycanın sosial-iqtisadi həyatında ciddi dönüş yaratmışdır. Başqa sözlə, neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya, eyni zamanda, regionların sosial-iqtisadi tərəqqisi, yoxsulluğun azaldılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsinə dair dövlət proqramları, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası iqtisadiyyatımızın hərtərəfli inkişafında, milli iqtisadiyyat sahələrinin xarici faktorların dağıdıcı təsirlərindən qorunmasında müstəsna rol oynamaqla yanaşı, gələcək iqtisadi artım üçün güclü potensial formalaşdırmışdır.

Prezident İlham Əliyevin ötən illər ərzində uğurla həyata keçirilən məqsədyönlü iqtisadi siyasəti nəticəsində ölkədə planlı sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilmişdir. Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlmişdir.

Son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatı 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003–2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.

Respublikamızda orta illik iqtisadi artım tempi dünyada ən yüksək nəticələrdən biri kimi qeydə alınmış və Azərbaycan dünyada sosial-iqtisadi cəhətdən ən sürətli inkişaf edən ölkə olmuşdur. Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan, eyni zamanda, ÜDM-in həcminə görə dünya ölkələri arasında 20 pillədən çox irəliləmiş və hazırda Cənubi Qafqaz iqtisadiyyatının 60 faizindən çoxunu təşkil edərək, regionda liderlik mövqeyini daha da gücləndirmişdir.

Bu müddətdə adambaşına düşən ÜDM-in həcmində 2,7 dəfə real artıma nail olunmuşdur ki, bu da Azərbaycanın dünya ölkələri arasında 29 pillə yüksəlməsinə gətirib çıxarmışdır. Nəticədə Dünya Bankı tərəfindən adambaşına düşən milli gəlirin həcminə görə dünya ölkələrinin təsnifatı sistemində respublikamızın mövqeyi aşağı gəlirli ölkələr qrupundan yuxarı--orta gəlirli ölkələr qrupuna yüksəlmişdir.

Ərzaq təhlükəsizliyi: uğurlar və perspektivlər

Azərbaycan iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının modernləşdirilməsi uğurla həyata keçirilmişdir. Belə ki, 2003-cü ildən etibarən aqrar sektora dövlət dəstəyi tədbirləri davam etdirilmiş, kənd təsərrüfatı məhsullarının intensiv metodlar və müasir texnologiyalar əsasında istehsalı, emalı geniş miqyas almış, aqrar sektorun infrastruktur təminatı xeyli yaxşılaşdırılmışdır. Ölkə əhalisinin ərzaq təhlükəsizliyi daha da möhkəmləndirilmiş, əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi artırılmışdır. Güzəştli kreditlərin verilməsi, vergi güzəştləri, subsidiyalaşma, aqrolizinq xidmətlərinin genişləndirilməsi və digər dövlət dəstəyi tədbirləri davam etdirilmişdir.

Məhsul istehsalçılarının xərclərinin azaldılması və gəlir əldə etmək imkanlarının artırılması diqqət mərkəzində saxlanılmışdır. Bunun bariz ifadəsi kimi, ötən 10 il müddətində kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif kömək tədbirləri üzrə 1,2 milyard manata yaxın subsidiya ödənilmişdir. "Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə gətirilərək lizinq yolu ilə istifadəyə verilmişdir. Yeri gəlmişkən, "Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2 mart 2018-ci il tarixli sərəncamına əsasən, satış qiymətinə tətbiq olunan güzəştin yuxarı həddinin mineral gübrələr üçün 50 faiz, pestisidlər üçün isə 5 dəfə artırılması məhsul istehsalçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Son 15 ildə aqrar sahədə sistemli şəkildə həyata keçirilən islahatlar sayəsində kənd təsərrüfatında istehsal göstəriciləri davamlı olaraq yüksəlmişdir. Bu nəticələr daxili bazarda yerli istehsal hesabına təklifin artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşmasına şərait yaratmaqla bərabər, qeyri-neft ixracının artırılmasına da mühüm töhfə vermişdir. Bu fikrin təsdiqi olaraq statistikaya əsasən xatırladaq ki, 2003–2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı, ümumilikdə, 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil etmişdir. Dünya Bankının məlumatlarında bildirilir ki, sözügedən dövrdə Azərbaycanda kənd təsərrüfatının real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olmuşdur.

Yüksək əlavə dəyər yaradan ənənəvi sahələr – pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, çayçılıq, üzümçülük və sitrus meyvəçiliyi ilə bağlı qəbul olunan dövlət proqramları çərçivəsində reallaşdırılan islahatlar da aqrar sahənin inkişafını sürətləndirmişdir. Nəticədə, kənd yerlərində geniş məşğulluq potensialı yaradılmış, ölkənin istiqamətlərdən biri kimi hər zaman diqqət çəkmişdir. Başqa sözlə, "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür"-- deyən dövlətimizin başçısı öz vətəndaşına daim qayğı ilə yanaşmış, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini mühüm vəzifə kimi müəyyənləşdirmiş və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirmişdir. Bununla bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr reallaşdırılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı və həmin sənədlərə çoxsaylı əlavələr qəbul edilərək uğurla icra olunmuşdur. Bunu statistik göstəricilərdən də aydın görə bilərik: əmək haqları, təxminən, 7 dəfə, pensiyalar 10 dəfədən çox artırılmışdır. Ölkədə 1,9 milyon yeni iş yeri açılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilmişdir. Respublikada 3100-dən çox məktəb tikilmiş və təmir olunmuş, 640-dan çox xəstəxana istifadəyə verilmiş və ya yenidən qurulmuşdur.

Vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinmiş, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilmişdir.

Aztəminatlı və şəhid ailələrinin, Qarabağ əlillərinin, məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli üçün ardıcıl tədbirlər görülmüş, 290 minədək məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin olunmuşdur. Qarabağ müharibəsi əlillərinə 6144 avtomobil verilmiş, 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər inşa edilmişdir.

Kosmik ölkə statusu

2008-ci ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" dövlət başçısının sərəncamı və buna uyğun olaraq 2009-cu ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə yüksək texnologiyaların tətbiqinə, kosmik sənayenin yaradılmasına, müasir kosmik layihələrin həyata keçirilməsinə təkan vermişdir. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətə başlaması, üç peykin - 2013-cü ilin fevral ayında "Azerspace-1", 2014-cü ilin dekabr ayında "Azersky" və 2018-ci ilin sentyabr ayında "Azerspace-2" peyklərinin orbitə çıxarılması bunun parlaq ifadəsidir.

Onu da vurğulamaq yerinə düşər ki, həmin peyklərin orbitə çıxarılması Azərbaycanı magistralların kəsişdiyi çoxölçülü informasiya-kommunikasiya məkanına çevirərək, respublikamızın geoiqtisadi funksiyalarını genişləndirmiş, xarici ölkələrdən informasiya asılılığını aradan qaldırmış və informasiya təhlükəsizliyini təmin etmişdir.

Hazırda Azərbaycan dünyanın 25 ölkəsində fəaliyyət göstərən 100-dən çox özəl və dövlət şirkətlərinə peyk xidmətləri göstərir və indiyədək bu xidmətlərdən əldə edilən gəlirlərin həcmi 104 milyon dollara çatmışdır. Proqnozlara əsasən, bu istiqamətdə ixracın genişləndirilməsi üçün mövcud olan böyük potensial növbəti illərdə daha çox özünü büruzə verəcək və respublikaya, təqribən, 900 milyon dollardan çox vəsaitin daxil olmasını reallaşdıracaqdır. Kommersiya xarakterli fəaliyyətlə yanaşı, peyklər ölkəmizin sosial-iqtisadi yüksəlişində, yeni elmi-tədqiqat sahələrinin yaranmasında, insan kapitalının inkişafında, beynəlxalq əməkdaşlığın genişləndirilməsində və s. müstəsna rol oynayacaqdır.

Regionun və Avropanın enerji təhlükəsizliyinin təminatçısı

"Əsrin müqaviləsi"nin imzalanması ilə dünyada neft ölkəsi kimi tanınan Azərbaycanın təchizatçısı olduğu Bakı-Tbilisi-Ceyhan layihəsi ilə respublikamız qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30-dək ölkəsinə ixrac edilir.

1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Eyni zamanda, ölkəmiz son illərdə təbii qaz ehtiyatlarına görə də diqqəti cəlb etmiş, bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır.

2007-ci ildə mühüm əhəmiyyət daşıyan bir layihə olan Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Xatırladaq ki, bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. İlk dəfə olaraq həmin il Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır.

Dəyəri 40 milyard dollar olan Cənub Qaz Dəhlizi isə Avropaya təbii qazın çatdırılması üçün digər bir mənbə və enerji şaxələnməsi, enerji təhlükəsizliyi, Avropa bazarlarına təbii qazın davamlı çatdırılması deməkdir. Məlumat üçün qeyd edək ki, bu ilin noyabr ayında Cənub Qaz Dəhlizinin seqmentləri olan TANAP və TAP boru kəmərləri Türkiyə–Yunanıstan sərhədindəki Meriç çayı sahilində bir-birinə qaynaq edilmişdir.

Bu iki boru kəmərinin birləşməsi ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyaya nəql oluna biləcək.

Xatırladaq ki, bu il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilmiş və Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vurulmuşdur. İyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilmişdir. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi iyunun 30-da başlamışdır. TANAP boru kəməri ilə bu vaxtadək Türkiyəyə 400 milyon kubmetrdən çox Azərbaycan təbii qazı nəql olunmuşdur. Bu həcm dekabrın sonuna kimi 1 milyard kubmetrə çatacaq. TANAP-la 2019-cu il ərzində 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazı Türkiyəyə nəql ediləcək. TAP ilə Azərbaycan təbii qazının 2020-ci ildə Avropaya çatdırılması nəzərdə tutulur.

TANAP layihəsi üzrə kapital xərcləri 8 milyard dollardır və indiyədək 5,7 milyard dollar xərclənmişdir. TANAP-ın Gürcüstan–Türkiyə sərhədi – Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər–Türkiyə–Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Kəmərin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Beynəlxalq nəqliyyat dəhlizləri qovşağı

Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yeni Ələt–Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolu, tikintisi yekunlaşmaqda olan Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xətti Şərq–Qərb, Şimal–Cənub və Cənub–Qərb nəqliyyat dəhlizlərinin Azərbaycanda kəsişməsini və inteqrasiyasını təmin edərək ölkəmizi beynəlxalq nəqliyyat qovşaqlarından, logistika mərkəzlərindən birinə çevirir. Belə qlobal əhəmiyyətli nəhəng layihələrin reallaşdırılması ilə Azərbaycanın Avrasiya geoiqtisadi məkanının bütün istiqamətləri arasında rəqabətqabiliyyətli və səmərəli əlaqəni təmin edən "qitələrarası körpü" statusunu qazanması ölkəmizin iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilməklə yanaşı, onun geosiyasi mövqeyini gücləndirəcək, regional təhlükəsizliyə və inkişafa mühüm töhfələr verəcəkdir.

Vaqif BAYRAMOV,
"Xalq qəzeti"

Dünya azərbaycanlıları üçün media platforması yaradıldı

❒ ***Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın fəallığı nəticəsində diaspor quruculuğu uğurla davam edir. Fəal diaspor nümayəndələri arasında əlaqələri gücləndirmək, informasiya texnologiyalarının vasitəsi ilə virtual əməkdaşlıq olduqca önəmli və aktualdır. Bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Dünya Azərbaycanlılarının Onlayn Sammiti – daos.az saytının təqdimatında səsləndirilib.***

DAOS virtual şəbəkəsi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının katibi Nərgiz Xələf və "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri Fuad Hüseynzadə tərəfindən vətəndaş təşəbbüsü olaraq könüllü yaradılıb. Saytın əsas məqsədi xaricdə yaşayan soydaşlarımıza özlərini virtual olaraq Vətəndə hiss etdirməkdir.

Mərasimdə Nərgiz Xələf saytın məqsəd və vəzifələri barədə ətraflı məlumat verib. O, bildirib ki, dünya azərbaycanlılarının istifadəsi üçün yaradılmış daos.az saytının məqsədi, soydaşlarımızın öz yazılarını, fikirlərini daha geniş platformada paylaşmağa şərait yaratmaq, virtual informasiya sistemi formalaşdırmaqdır. Belə ki, xaricdə yaşayan soydaşlarımız hər hansı yaradıcılıq işini, gündəlik

fəaliyyətini, fotolarını ekspromt olaraq paylaşa biləcəklər. Onlar öz paylaşımları ilə sayta özəllik gətirməklə yanaşı, həm də xəbər istehsalçısı rolunu oynayacaqlar.

Fuad Hüseynzadə məlumat verib ki, dünya azərbaycanlıları üçün media platforması olan DAOS onlayn şəbəkəsinin digər xidmətlərindən biri ilk dəfə olaraq sayt vasitəsilə ildə iki dəfə onlayn sammitinin keçirilməsi ilə bağlıdır. Gələcəkdə nəzərdə tutulan onlayn sammit çərçivəsində dünya azərbaycanlıları virtual məkanda bir araya gələrək görülmüş və görüləcək işləri, perspektiv planlarını müzakirə edəcəklər.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin xaricdə yaşayan azərbaycanlılarla iş sektorunun baş məsləhətçisi Natiq Əliyev ulu öndərin diaspor quruculuğu sahəsində gördüyü işlərdən danışıb və bu təşəbbüsü yüksək qiymətləndirərək saytın dünya azərbaycanlılarının həmrəyliyi üçün önəmini xüsusi qeyd edib. O, bildirib ki, xaricdə yaşayan azərbaycanlılarla iş dövlət siyasətinin tərkib hissəsidir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva isə qeyd edib ki, dünya azərbaycanlılarının həmrəyliyi vacib məsələdir. O, ümidvar olduğunu bildirib ki, bu işdə daos.az saytı mühüm rol oynayacaq.

Gənclər və İdman Nazirliyində gənclərlə iş şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri Fuad Babayev saytın yaradıcılarına uğurlar arzulayıb. Milli Məclisin deputatı Adil Əliyev vurğulayıb ki, bu sayt vasitəsilə bir çox işlərə nail olmaq mümkündür.

Daha sonra saytın məzmunu barədə ətraflı məlumat verilib. Tədbir iştirakçılarına saytda qeydiyyatdan keçmək, eləcə də yazı və şəkil yerləşdirmək qaydaları izah edilib.

Əfsanə BAYRAMQIZI,
"Xalq qəzeti"

Dünya azərbaycanlıları arasında həmrəylik fəaliyyətimizin əsasını təşkil edir

Fuad MURADOV,
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

❒ ***Bu gün hər bir azərbaycanlının böyük qürur hissi ilə qeyd etdiyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında ən böyük xidmətlərindən biridir. 1991-ci ildə hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etməsindən düz 27 il keçir.***

Əslində, ümummilli liderin diaspor quruculuğu ilə bağlı fəaliyyəti onun Azərbaycanda hakimiyyətinin ilk mərhələsinə, yəni 1969-1982-ci illərə gedib çıxır. O illərdə azərbaycanlı gənclərin müxtəlif ölkələrdə təhsil almağa göndərilməsi heç də təsadüfi deyildi. Bu, ümummilli liderin SSRİ dövründə həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasətin tərkib hissəsi idi: azərbaycanlılar, xüsusən gənclər təkcə Azərbaycanda qalmasınlar, Sovet İttifaqının başqa şəhərlərində, respublikalarında da yaşasınlar, hər yerdə Azərbaycanın diasporu olsun, lobbisi formalaşsın.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılması, diaspor quruculuğunun dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsi bu sahədə xüsusi dövlət qurumunun yaradılması ilə nəticələndi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən 5 iyul 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzalandı. 2008-ci ildə isə ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə bu komitənin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Bu illər ərzində azərbaycanlıların təşkilatlanması istiqamətində müəyyən işlər görüldü, türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələr quruldu və birgə fəaliyyət strategiyası qəbul olundu. Dünyada gedən qloballaşma prosesi, xalqlar arasında sürətli inteqrasiya meyillərinin güclənməsi bu gün diaspor quruculuğu sahəsində daha effektiv işlər görməyi qaçılmaz edir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müasir dünyanın qlobal tələblərinə uyğun siyasi kursu son dövrlərdə diaspor hərəkatını daha da gücləndirib, xaricdəki Azərbaycan icmaları arasında əlaqələr möhkəmlənib, haqq səsimizin dünyaya çatdırılması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, həmçinin ölkələr daxilində siyasi proseslərə, az da olsa



təsir göstərilməsi istiqamətində bir sıra nailiyyətlərə imza atılıb. Bəzi ölkələrin diaspor təcrübəsinə baxdıqda görünən odur ki, diaspor ilə sarsılmaz bağlar qura bilən ölkələr, beynəlxalq arenada daha güclü tərəfə çevrilirlər. Ölkəmiz də məhz bu hədəfə doğru irəliləyir. Qeyd etməliyik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirərək, diaspor quruculuğu işinin keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində önəmli addımlar atmaqdadır.

Bu istiqamətdə Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, humanist fəaliyyəti ilə seçilən, həmçinin, mədəniyyətə, idmana qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda ictimai-siyasi xadim kimi böyük işlər görən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolu xüsusi qeyd edilməlidir. Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin üzləşdiyi təcavüzkarlıq faktının ifşası istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaradılan internet portalı (http://www.justiceforkhojaly.org), müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətinə problemin kökləri, səbəbləri haqqında kifayət qədər məlumat çatdırıb. Daha dəqiq desək, fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq, hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı təqdim olunur. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlayan "Xocalıya ədalət!" Beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Məhz bu kampaniyaya start verilməndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub.

Yeni dünya düzəni və qloballaşma prosesləri diaspor siyasətinin tarixi məzmununu dəyişməkdədir. İndi diasporlar yalnız müəyyən bir dövlətin ərazisində məskunlaşmış eyni milli mənsubiyyətli insanların yaratdıqları ictimai hərəkat və ya birlik kimi nəzərdən keçirilmir, onlar həm də təmsil etdikləri xalqın milli maraqlarının fəal müdafiəçisi kimi tanınır. Diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatının vacib komponentinə çevrilir, xarici siyasətə təsir imkanları əldə edir, dövlətlər arasında münasibətlərin inkişafında mühüm rol oynayırlar.

Diasporların dövlətlər arasındakı münasibətlərə təsiri onların daxili mahiyyəti, özünəməxsus xarakteri, konkret bir mədəniyyətin daşıyıcısı olması, təmsil etdiyi millətin, xalqın, yaxud etnosun tarixi mənafelərini ifadə etməsi ilə bilavasitə bağlıdır. Çünki dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq hər bir xalqın diasporu yalnız özünün hüquq və azadlıqlarının qorunmasına çalışmır, həm də milli mədəni irsini təbliğ etməyə, tarixi Vətəni haqqında rəy formalaşdırmağa, onun rifahı və inkişafına dəstək olmağa səy göstərir.

Diasporların dövlətlər arasındakı münasibətlərin inkişafı haqqında danışarkən, Azərbaycanın bu sahədəki təcrübəsinə diqqət yetirmək yerinə düşür. XX əsrin sonlarında dünyada baş vermiş mürəkkəb ictimai-siyasi proseslər, Sovet İttifaqının süqutu, birqütblü dünyanın yaranması, yeni müstəqil dövlətlərin meydana çıxmasından sonra diaspor quruculuğu işinin əhəmiyyəti daha da artmağa başladı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra diaspor quruculuğu dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu inkişaf həm də Azərbaycan diasporunun yaranması, onun formalaşması, təşkilatlanması, mütəşəkkil qüvvəyə çevrilməsinə şərait yaratdı. Əldə edilmiş nailiyyətlər, eyni zamanda, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsi, ölkəmizin milli maraqları ətrafında sıx birləşməsi üçün güclü zəmin formalaşdırdı. Soydaşlarımızın tarixi Vətənlə əlaqələrini daha da gücləndirmək istiqamətində ümummilli liderin atdığı mühüm addımlar tədricən nəticəsini verməyə başladı və 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi kimi tarixi hadisə baş verdi. Dünya azərbaycanlıları ilk dəfə olaraq Bakıda bir araya gəldi, qarşıda duran vəzifələri, problemləri, onların aradan qaldırılması yolları müzakirə edildi. Ümummilli liderin diaspor quruculuğu sahəsində ardıcıl olaraq həyata keçirdiyi uzaqgörən siyasəti nəticəsində Azərbaycan diasporunun tarixində yeni bir mərhələ başlandı.

Bu gün müasir dünyanın çağırışları yeni diaspor strategiyasının hazırlanmasını zəruri etdiyindən Diasporla İş üzrə Dövlət Komitəsinin (DIDK) yeni "Strateji Yol Xəritəsi" işlənib hazırlanıb və icrası istiqamətində addımlar atılır. Hazırda dövlət komitəsi əsas prioritetlərindən biri və birincisi ölkə başçısının tapşırıqlarına, komitənin Əsasnaməsinə və digər normativ-hüquqi sənədlərə uyğun olaraq dünya azərbaycanlılarının birləşdirilməsi, soydaşlarımızın fəaliyyətinin koordinasiya edilməsi, diaspor hərəkatının gücləndirilməsi, milli-mədəni irsin təbliği, işğal edilmiş ərazilərimizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və həmvətənlərimizin xarici ölkələrin ictimai-siyasi həyatında fəal mövqe tutması, siyasi-iqtisadi təsir imkanlarına malik olması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycanın diaspor təşkilatlarının dayanıqlı əsaslar üzərində qurulması və daha güclü təməllərlə fəaliyyət göstərməsi üçün dövrün tələblərinə uyğun yeni strateji istiqamətlər müəyyənləşdirilib. Diasporla İş üzrə Dövlət Komitəsində strateji hədəflərə yönələn yenilənmiş fəaliyyət proqramı çərçivəsində artıq intensiv tədbirlərin həyata keçirilməsinə başlanılıb. Türkiyə, Fransa, Almaniya, Rumıniya, Ukrayna, Rusiya, Gürcüstan, İsveçrə, İsveç, Hollandiya, Çin və Amerika Birləşmiş Ştatlarına səfərlər edilib, soydaşlarımız və diaspor fəalları ilə görüşlər keçirilib, onların problemləri öyrənilib və həlli istiqamətində əməli tədbirlər görülür.

Bu gün dünyanın təqribən 50 ölkəsində 556 diaspor təşkilatımız mövcuddur. Ümumiyyətlə isə son 8 ayda Dövlət Komitəsinin nümayəndə heyəti 11 ölkədə diasporlarımızla görüşlər keçirib, onların vəziyyəti ilə yerindəcə tanış olub və fikir mübadiləsi aparılıb.

Dünyada yaşayan azərbaycanlı gənclərin birliyinin daha da möhkəmləndirilməsi yolunda, ölkə başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, davamlı işlər aparılır. Bu istiqamətdə atılmış növbəti addımlardan biri bu ilin avqust ayında 37 ölkədən 140 gəncin iştirakı ilə "Cümhuriyyətin 100 illiyi" Diaspor Gənclərinin I yay düşərgəsinin keçirilməsi və burada "Azərbaycan Diaspor Gəncləri" şəbəkəsinin təsis edilməsidir.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, müxtəlif ölkələrdə keçirilmiş görüşlərdə azərbaycanlıların birliyinə təkan verildi, Azərbaycan dövlətinin xaricdəki azərbaycanlılara diqqət və qayğısı bir daha təsdiqləndi, Azərbaycana dost diaspor təşkilatları ilə Azərbaycan diaspor təşkilatları, eyni zamanda, DİDK arasında əməkdaşlığın əsası qoyuldu, diaspor təşkilatları ilə təcrübə mübadiləsi sahəsində tarixi razılaşmalar əldə olundu. Yerli rəsmilərlə görüşlərdə həmin ölkələrdəki azərbaycanlıların problemləri qaldırıldı və onların həllinə mümkün təkan verildi. Azərbaycan adı bir daha təbliğ olundu, azərbaycanlıların bu ölkələrdəki mövqeyinə əhəmiyyətli müsbət təsir göstərildi, dövlət səviyyəsində diaspora dəstəyin artdığı sübut olundu, Avropa və Amerikadakı Azərbaycan diasporunun fəaliyyətinin güclənməsinə stimul verildi.

Artıq Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında razılaşmaya uyğun olaraq, Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklərinə birgə fəaliyyətlə bağlı müvafiq məktub göndərilib. Bu istiqamətdə digər əlaqələndirmə tədbirlərinin həyata keçirilməsi də gündəlikdə duran məsələlər sırasındadır və yeni fəaliyyət proqramları çərçivəsində atılan addımların müvafiq nəticələrin təhlili göstərir ki, ayrı-ayrı ölkələrdəki Azərbaycan diaspor təşkilatları öz fəaliyyətlərində yeni, effektiv iş mərhələsinin başlandığını etiraf edir. Artıq bir ölkə daxilində bir-biri ilə çəkişən, umu-küsü saxlayan diaspor təşkilatı, demək olar ki, yoxdur. Ölkə başçısı, cənab İlham Əliyev tərəfindən yaradılan Diaspora Dəstək Fondu isə dünyada Azərbaycanın diaspor ənənələrinin daha da inkişaf etməsinə möhkəm təməl formalaşdıracaq.

Dövlət komitəsinin işləyib hazırladığı yeni yol xəritəsində xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının və azadlıqlarının müdafiəsinin təmin olunması vacib istiqamətlərdən biridir. Bu məqsədlə dünyadakı beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin miqrasiya və bilavasitə diaspora məsul dövlət orqanları, qeyri-hökumət qurumları, Azərbaycandakı beynəlxalq təşkilatlar və səfirliklər ilə birbaşa əməkdaşlıq yaradılıb. Dövlət komitəsinin nümayəndə heyəti səfərdə olduğumuz hər bir ölkədə müvafiq qurumlarla da görüşlər keçirir, soydaşlarımızın problemlərini onların diqqətinə çatdırır, problemlərin həlli yolları ilə bağlı müzakirələr aparır və dəstək olmağa çalışırıq. Almaniya və Fransa DİN-ləri, ABŞ Dövlət Departamenti, dünyanın bir çox elm və təhsil ocaqları ilə əməkdaşlıq qurulub. Diasporla İş üzrə Dövlət Komitəsi xaricdəki azərbaycanlıların hüquqlarının qorunması ilə bağlı daha bir vacib təşəbbüsə qoşulub. Azərbaycanlıların xarici ölkələrdə insan alverinin qurbanına çevrilməsinin qarşısının alınması, eyni zamanda, qurban olmuş şəxslərin xilas edilməsi işinə dövlət komitəsi, eləcə də xaricdəki Azərbaycan diaspor təşkilatlarının cəlb edilməsi üçün Beynəlxalq Miqrasiya Təşkilatı ilə müzakirələr aparılır.

Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Türkiyə Respublikasında şəxsiyyəti təsdiq edən sənədləri olmadan məskunlaşmış azərbaycanlıların problemlərinin həlli, soydaşlarımızın müvafiq sənədlər əldə etməsi istiqamətində davamlı işlər görülür.

Soydaşlarımızın hüquq və azadlıqlarından danışarkən Gürcüstanda yaşayan azərbaycanlıların problemləri unudulmamalıdır. Ölkə rəhbərliyinin və dövlət komitəsinin hər zaman diqqətində olan Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı problemlərin həlli istiqamətində zəruri addımlar atılır. Bu ilin iyun ayında dövlət komitəsinin nümayəndə heyətinin Gürcüstanda səfəri zamanı azərbaycanlılar yaşayan bölgələrdə yerli sakinlərlə görüşlər keçirildi, onların problemləri, qayğıları dinlənildi, icra orqanlarının nümayəndələri və bir sıra rəsmi qurumlarda bu məsələlər müzakirə olundu. Həmvətənlərimizin burada təhsil, səhiyyə və sosial problemləri ilə yanaşı, ən önəmli məsələ onların yerli cəmiyyətə inteqrasiyası ilə bağlıdır. Çünki,yalnız cəmiyyətə inteqrasiya etmiş, vətəndaşı olduğu dövlətin dilini, qanunlarını bilən bir toplum öz hüquqlarını qoruya, normal yaşam şərtlərini təmin edə bilər. Eyni zamanda, bu səfər çərçivəsində soydaşlarımızın ilkin tibbi yardımla bağlı problemlərini qismən həll etmək məqsədilə Heydər Əliyev Fondu adından Bolnisi və Qardabani rayonunlarına yüksək tibbi imkanlara malik təcili tibbi yardım avtomobili hədiyyə edildi.

Soydaşlarımızın yaşadıqları ölkələrdə assimlyasiya deyil, inteqrasiya etməsi hər zaman aktualdır və ana dilinin qorunub yaşadılması dövlət komitəsinin qarşısında qoyulan əsas vəzifələrdəndir. Bu istiqamətdə də davamlı işlər görülür. Məsələn, bu yaxınlarda İsveçrədə "Qarabağ" adlı Azərbaycan dili və mədəniyyəti məktəbi açılaraq, soydaşlarımızın istifadəsinə verilib. Fransanın Nant şəhərində də belə bir tədris ocağının açılması planlaşdırılır.

Hazırda xaricdə Azərbaycan məktəblərinin sayının artırılması, soydaşlarımızın dilimiz, tariximiz, mədəniyyətimiz və ümumilikdə ölkəmiz haqqında daha geniş informasiyalar əldə etməsi üçün ardıcıl addımlar atılır. Görülən işlər, yalnız məktəblərlə tamamlanmır. Bir sıra ölkələrdə davamlı olaraq fəaliyyət göstərən kurslarda Azərbaycan dilinin, mədəniyyətinin incəlikləri nəinki soydaşlarımıza, onların övladlarına, eyni zamanda, xarici ölkə vətəndaşlarına da öyrədilir. Azərbaycan dili və mədəniyyətinin təbliği ilə yanaşı, həm də Azərbaycanın zəngin tarixi-mədəni irsə malik olduğu, azərbaycanlıların tolerant və sülhpərvər bir xalq olduğu bir daha dünyaya bəyan edilir. Eyni vaxtda, istər məktəblərin, istərsə də kursların fəaliyyətində Azərbaycan həqiqətlərinin təbliği, torpaqlarımızın işğalı, Qarabağ problemi ilə bağlı informasiyaların dünya ictimaiyyətinə çatdırılması əsas hədəflərdən biri kimi saxlanılır.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində digər xalqların diasporu ilə qarşılıqlı faydalı əməkdaşlığı, təcrübə mübadiləsini faydalı hesab edən dövlət komitəsi ilk dəfə olaraq xarici ölkələrin diaspor siyasətinə cavabdeh dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalayıb. Bu anlaşma ilk olaraq dövlət komitəsi ilə Rumıniyanın Xaricdə Yaşayan Rumınlarla İş üzrə Nazirliyi arasında baş tutub. Sənəd iki strateji tərəfdaş ölkənin diasporunun birgə əməkdaşlığını və təcrübə mübadiləsini nəzərdə tutur.

Türkiyə Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqraba Toplulukları İdarəsi ilə bizim komitə arasında da "Diasporla iş sahəsində əməkdaşlığa dair anlaşma Memorandumu" imzalanıb. Bu sənəd qardaş ölkənin analoji qurumu ilə daha sıx və səmərəli əməkdaşlığa şərait yaradacaq. Hazırda İsveçrə, Meksika, Misir və İsrailin diaspor üzrə məsul dövlət qurumları ilə də memorandumun imzalanması üçün danışıqlar aparılır.

Bu gün müasir dövrün yeni çağırışlarına uyğun olaraq ölkəmizdə innovativ inkişaf üçün ciddi addımlar atılır və ildən-ilə genişlənir. Bu prosesdə informasiya texnologiyaları sahəsi mühüm rola malikdir. Dövlət komitəsi də informasiya-kommunikasiya texnologiyalarının imkanlarından yararlanaraq müxtəlif innovativ layihələr həyata keçirməkdədir.

– komitənin rəsmi internet saytı yeni tərtibatda, üç dildə istifadəyə verilib;

– saytın təhlükəsizliyi maksimum səviyyədə təmin edilib;

– statistik göstəricilər nəzərə alınmaqla saytın mobil və digər qurğuları dəstəkləməsi təmin edilib;

– sayt sosial şəbəkələr ilə tamamilə inteqrasiya edilib və həm vebsayt üzrə, həm də ayrıca sosial şəbəkələr üzrə əhatəli analitik hesabatların qeydiyyatı aparılır;

– diasporamap.com inforqrafik xəritə platformasını istifadəyə verdik, müxtəlif ölkələrdəki diaspor təşkilatlarını və tanınmış azərbaycanlıları ölkələr üzrə topladıq. Qeyd edim ki, bu istiqamətdə işlərimiz davam edir, təşkilatların vahid bazası təkmilləşdirilir;

– dövlət komitəsinin loqo və üslubunu çoxsaylı təkliflər nəzərə almaqla yenidən tərtib etdik;

– multimedia məhsullarının sayını artırmaqla dövlət komitəsi haqqında informasiya boşluğunu doldurmağa nail olduq. Video və inforqrafik çarxlar, slayd və təqdimat xarakterli informasiyalar saytımızın və sosial şəbəkələrin köməyi ilə geniş ictimaiyyətə çatdırılır.

Komitənin internet televiziyası Diaspor TV yaradılaraq, aktiv fəaliyyəti təmin edilmişdir. Diaspor TV-də "Dünyada yaşayan azərbaycanlıları tanıyaq-tanıdaq" layihəsi həyata keçirilir. Layihə çərçivəsində, uğur əldə etmiş soydaşlarımız haqqında videoroliklər hazırlanaraq yayımlanır. Onlayn Azərbaycan dili dərsləri təşkil edilir, "Azərbaycan dilində danışan xaricilər" və "Qarabağ" rubrikası da fəaliyyət göstərir. Burada Qarabağ haqqında 5 cümlə 5 dildə yayımlanır.

Paralel olaraq, komitənin İctimai Televiziya ilə birgə layihəsi çərçivəsində ayda bir dəfə "Vətən uzaqda deyil" adlı veriliş yayımlanır. Verilişdə xaricdə yaşayan soydaşlarımızla müsahibələr, həyata keçirilən layihələr barədə videoreportajlar və s. yer alır.

Müasir dövrün tələblərinə uyğun olaraq sosial şəbəkələrə diqqət artırılıb. Xüsusilə, sosial şəbəkələr üçün müxtəlif rubrikalar üzrə hazırlanmış multimedia materialları və rəsmi vebsaytın informasiya paylaşımları hesabına izləyicilərin sayında böyük artım oldu və proses sürətlə davam etməkdədir. Diaspor təşkilatlarına onların elektron və sosial mediada işini gücləndirmək məqsədilə informasiya-kommunikasiya texnologiyaları sahəsində tam ödənişsiz texniki dəstək təklif edirik. Diaspor təşkilatlarının internet saytlarının hazırlanması, e-poçt xidmətlərinin yaradılması və digər innovativ məsələlərdə, eləcə də sosial mediada marketinq işinin təşkilinə dair dəstək göstərəcəyik. Bu məqsədlə, diaspor təşkilatlarının qeydiyyata alınması prosesi davam edir və artıq 85 təşkilat qeydiyyatdan keçib.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin radiosu Diaspor.FM test yayıma başlayıb. Həm veb üzərindən, həm də mobil tətbiq vasitəsilə yayım aparılır.

Bu tip layihələrin həyata keçirilməsində əsas hədəflərimizdən biri də internet məkanında Azərbaycan həqiqətləri ilə bağlı informasiyaların – kontentin üstünlüyünə nail olmaqdır.

Müasir dövrdə informasiya müharibəsi, şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri, Azərbaycan diaspor hərəkatında gənclərin rolu, lobbi quruculuğu, cəmiyyətə inteqrasiya və siyasi həyatda fəallığın artırılması kimi mühüm məsələlər, həmçinin təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi 2019-cu ildə də dövlət komitəsinin diqqət mərkəzində olacaq. Ulu öndərin qoyduğu strateji xəttin davamı olaraq diaspor fəaliyyətinin coğrafiyası daha da genişləndiriləcək, xarici ölkələrin parlament və hökumət üzvləri, dövlət orqanlarının rəhbərləri, ictimai xadimlər, elm adamları, jurnalistlərlə əlaqələr yaradılması, onların Azərbaycanla tanışlıq və məlumatlandırma xarakterli səfərlərinin təşkili həyata keçiriləcək.

Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması, konkret hadisələr üzrə faktların dünya ictimaiyyətinə çatdırılması cənab Prezidentin hər birimizin qarşısında müəyyən etdiyi ən vacib məsələlərindən biridir.

Görülən bu işlər yalnız müəyyən vəzifə daşıyıcılarının və ayrı-ayrı ictimai xadimlərin deyil, bütövlükdə hər bir azərbaycanlının, hər bir vətənsevərin, eləcə də beynəlxalq hüquq normalarına hörmətlə yanaşan hər bir insanın borcudur.

Əziz həmvətənlər, bayramınız mübarək olsun!

Akif ƏLİZADƏ, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

– Doğma Vətənimiz Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan əziz həmvətənlər!

Çox hörmətli "Xalq qəzeti"nin oxucuları!

Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, sizə həyatda cansağlığı və səadət, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq!

Şərəfli tarixi keçmişə, çoxsaylı ziyalılara, tarix boyu əldə etdiyi möhtəşəm elm, sənət və mədəniyyət uğurlarına, zəngin təbiətə, əlverişli geopolitik mövqeyə, müxtəlif təbii resurslara, intellektual insan kapitalına malik Azərbaycan müasir dünyada özünəməxsus yeri, mövqeyi olan güclü dövlətdir və dünyanın hansı güşəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur mənbəyidir. Azərbaycan məfhumu dünya azərbaycanlılarını vahid ideya, məqsəd və məram ətrafında birləşdirə bilən müqəddəs, ali dəyərdir! Təsadüfi deyildir ki, dünya azərbaycanlılarının həmrəyliyinin əsasında dayanan ümummilli ideya məhz azərbaycançılıq ideologiyasıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu ideologiyanın mənəvi inteqrativ potensialı sayəsində dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar müqəddəs Vətən məfkurəsi ətrafında sıx birləşmiş, onlarda xalqın, millətin taleyüklü məsələlərinə vahid mövqedən münasibət formalaşmışdır. Artıq bu gün dünyanın istənilən yerində yaşayan azərbaycanlıların mənafeyini müdafiə edən, onların vahid ideya ətrafında birləşməsində maraqlı olan müstəqil, güclü Azərbaycan Respublikası vardır!

Otuz ilə yaxın müstəqillik yolu keçmiş Azərbaycan hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymaqdadır.

Bir göz qırpımında ötüb keçən 2018-ci il artıq tarixə qovuşur. Bu il də müstəqillik tariximizdə öz layiqli yerini tutacaq, rastlaşdığımız bütün çətinliklərə baxmayaraq, xalqımızın uğur salnaməsinə yazılacaq. Bu salnaməni yazanlardan biri də alimlərdir. Məhz onların yuxusuz gecələrinin axtarışları, kəşfləri, ixtiraları həyat adlanan "mexanizmi" hərəkətə gətirir və tərəqqini təmin edir.

Yola saldığımız 2018-ci ili Azərbaycan elmi üçün də uğurlu hesab etmək olar. Bu il, hər şeydən əvvəl, Azərbaycan Milli Elmlər Akademiyası üçün islahatlarla müşayiət olunan yeni yüksəliş mərhələsi kimi yadda qaldı. AMEA-nın intellektual potensialının inkişafı, onların daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi. Müasir şəraitdə elmi işin daha effektiv həyata keçirilməsi üçün elmi potensialla iş sahəsində yeni idarəçilik mexanizmlərinin tətbiqini təmin edən layihələr işlənib hazırlandı. İntellektual gəncliyi ölkənin ümumi inkişaf tempinə uyğunlaşdırmaq, elmimizin gələcək taleyinin etibarlı əllərdə qorunmasını təmin etmək məqsədi ilə gənc alimlərlə bağlı bir sıra addımlar atıldı.

Bizim hədəfimiz Azərbaycan aliminin dünyaya müasir elmi informasiya daşıyıcısı kimi inteqrasiyasına nail olmaqdır. Bu məqsəd xaricdə və Azərbaycanda yaşayan hər bir azərbaycanlı alim və ziyalı qarşısında böyük məsuliyyət qoyur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan elm sahəsində də regionun lider dövlətinə çevrilməlidir. İnanırıq ki, qarşıya qoyulan məqsəd və ideyalar tezliklə öz gerçək nəticələrini verəcəkdir.

Azərbaycan elmi dünya elminin bir parçasıdır. Müasir zamanda alimlərimiz öz səylərini birləşdirərək xalqımıza, dövlətimizə xidmət edirlər. Dünyada isə iqtisadi böhran davam edir, münaqişələr, təbii fəlakətlər hər gün, hər saat kimlərinsə ömrünə son qoyur. Bu baxımdan Azərbaycan sanki fırtınalı dəryada möhtəşəm bir sabitlik adası kimi, istisna olaraq qalmaqdadır. Qarşıdan gələn 2019-cu ilin iyun ayında bu xəttin əsasını qoymuş – xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə ilk gəlişindən əlli il ötür. Əlli illik sosial-iqtisadi inkişafın nəticəsidir ki, bu gün Azərbaycan regionun aparıcı dövlətidir.

Təbiidir ki, gələcəyə aparan sosial-iqtisadi inkişafın əsasında ən başlıcası intellekt dayanır. Sevindirici haldır ki, alimlərimizin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Buna misal kimi onu əlavə etmək istərdim ki, aprel ayının 11-də keçirilmiş prezident seçkilərinə cəmi bir gün qalmış dövlət başçısı cənab İlham Əliyev hər il mart ayının 27-ni Azərbaycanda "Elm günü" olaraq qeyd olunması haqqında sərəncam imzaladı. Azərbaycan alimləri bu sərəncamı dövlət başçısının elmə, elm adamlarına göstərilən qayğının təcəssümü kimi qiymətləndirir, möhtərəm Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşərək, bundan sonra da cəmiyyətimizin tərəqqisi üçün ön sıralarda gedəcəklərini ifadə edirlər.

Mən inanır və ümid edirəm ki, qarşıdan gələn 2019-cu ildə Azərbaycanın elmi potensialı bir tərəfdən dövlətin günü-gündən elmə artan diqqət və qayğısı, digər tərəfdən də özünün daxili intellektual səfərbərliyi sayəsində yeni dövrün tələbləri baxımından daha mütəşəkkil və sistemli xarakter alacaq, respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında bundan sonra da yaxından iştirak edəcək, dünya elminə öz layiqli töhfələrini verəcəkdir.

Əziz həmvətənlər!

Bir daha sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir və sizə Vətənimiz Azərbaycan naminə atdığınız bütün addımlarda uğurlar arzulayırıq!

Bayramlarınız mübarək olsun!

Dünya azərbaycanlılarına aydın səma və səadət arzulayıram!

ƏHLİMAN ƏMİRASLANOV, akademik, SSRİ Dövlət mükafatı laureatı, Milli Məclisin səhiyyə komitəsinin sədri

– Yola saldığımız 2018-ci il Azərbaycan tarixinə uğurlu il kimi düşdü. Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərdikləri dövlət qayğısı sayəsində həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda bütün sahələri, o cümlədən elm, təhsil, eləcə də səhiyyə sahələrini əhatə edən qlobal problemlərin mükəmməl şəkildə öz həllini tapması diqqəti cəlb edir, hamıya xoş ovqat, bayram əhval-ruhiyyəsi bəxş edir.

2018-ci ilin ən xoş müjdələrindən biri Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində genişmiqyaslı təntənələrlə qeyd edilməsi oldu. Bu il həm də Azərbaycanda Səhiyyə Nazirliyinin yaradılmasının bir əsrlik yubileyinin təntənəsi ilinə çevrildi. Ötən illərin tarixi hadisələrinə nəzər saldıqda görürük ki, Azərbaycan səhiyyə sistemi, elm və təhsil sahələri bu illər ərzində çətin, lakin böyük nailiyyətlərlə zəngin olan şərəfli bir yol keçib.

Son illər ölkəmizin sözügedən sahələrinin beynəlxalq əlaqələrinin genişlənməsində və dünyanın analoji sahələrinə yaxından inteqrasiyasında dahi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində təsis edilən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsir dairəsinin böyük olması danılmaz həqiqətlərdəndir. Bu baxımdan ölkəmizdə dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, dövlət başçımızın xaricdə yaşayan soydaşlarımıza hərtərəfli dəstək verməsi, əsl atalıq qayğısı göstərməsi millətimizin birliyinin möhkəmlənməsinə, Azərbaycan diasporunun qüdrətlənməsinə gətirib çıxarıb.

Ölkəmizin dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada dayanmasını təmin edən cənab Prezidentin misilsiz xidmətləri beynəlxalq aləmdə, eləcə də qardaş Türkiyə Cümhuriyyətində ardıcıllıqla izlənilir. Məhz bunun nəticəsidir ki, 2018-ci ilin yekunlarına görə cənab Prezident İlham Əliyev Türkiyədə səmimi, işgüzar, uğurlu və Türkiyə dövlətinin dostu meyarlarına görə "İlin dövlət başçısı" seçilib. Bu da Azərbaycan xalqını, o cümlədən ölkəmizin bütün səhiyyə, elm və təhsil işçilərini ürəkdən sevindirir, onları yeni nailiyyətlərə ruhlandırır.

Artıq Azərbaycan torpaqlarına 2019-cu təqvim ili qədəm qoymaqdadır. Xalqımız yola saldığımız il kimi, bu ili də yüksək əhval-ruhiyyə ilə qarşılayır. Çünki bizim dünya şöhrətli Prezidentimiz, onun sərkərdəliyi altında yaradılan güclü ordumuz, onların arxasında isə öz yenilməzliyi, mərdliyi, dəyanəti, vətənpərvərliyi, vətənsevərliyi ilə seçilən möhtəşəm xalqımız vardır. Heç şübhə etmirik ki, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz Cocuq Mərcanlıdan İrəvana, Şuşaya, Xocalıya, Laçına və işğal altında olan digər əzəli torpaqlarımıza gedən yollarımızı erməni işğalından azad edəcək, xalqımıza yeni-yeni bayram ovqatları bəxş edəcəkdir. Biz buna inanırıq və bu inamla da Vətənə xidmət edirik.

Əziz həmvətənlər! Fürsətdən istifadə edərək cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva başda olmaqla bütün Azərbaycan xalqını, o cümlədən ölkəmizin səhiyyə, elm və təhsil sistemi işçilərini 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni təqvim ilinin gəlişi münasibəti ilə ürəkdən təbrik edir, Ulu Tanrıdan hamıya möhkəm cansağlığı, aydın səma, əmin-amanlıq diləyirəm.

2019 - yeni ilə yeni arzularla!..

Əvvəlki illərdə olduğu kimi, yola saldığımız 2018-ci ildə də ölkəmizin sosial-iqtisadi inkişafı davam etdirilib, Bakıda və bölgələrdə abadlıq-quruculuq işləri görülüb, yeni iş yerləri açılıb, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Amma xalqımızın hər gələn Yeni ildən mühüm bir gözləntisi də olur ki, bu da təxminən 30 ildən bəri həllini gözləyən Dağlıq Qarabağ problemidir. Bu problemin sülh və danışıqlar yolu ilə nizamlanması istiqamətində 2018-ci ildə də mühüm addımlar atıldı. Ümid edirik ki, qədim torpağımız Qarabağı, nəhayət ki, 2019-cu ildə düşməndən azad etmək üçün yeni imkanlar yaranacaq. Bunun üçün Azərbaycan dövləti, xüsusən Prezident İlham Əliyev tərəfindən ciddi səylər göstərilməkdədir.

Yeni il bayramı ərəfəsində xalqımız başqa bir əziz bayramını - 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü də böyük həvəslə qeyd edir. Belə günlərdə milli duyğu və düşüncələrimiz aşıb-daşır, arzu-diləklərimiz sabaha qanad açır. Dünyanın hər yerində soydaşlarımızın fəal iştirakı ilə anamız Azərbaycanın şərəfinə təntənələr qurulur.

Şübhəsiz ki, həmrəylik duyğusu bizi güclü edir, öyünc və sevincimiz həyat eşqimizi yüksəldir. Həmin gün dünyanın müxtəlif guşələrinə səpələnmiş soydaşlarımız yenidən bir araya gələrək görülmüş işləri saf-çürük edir, gələcək üçün yeni planlar qururlar. Şükürlər olsun ki, indi dünyanın, xüsusən Qərbin, demək olar ki, bütün ölkələrində Azərbaycan diasporu fəaliyyət göstərir. Son illərdə Azərbaycan diaspor təşkilatları öz güclərini dünya türk təşkilatlarının gücünə qataraq daha da qüvvətləniblər və öz sözlərini daha cəsarətlə deyir, haqq səsimizin dünyada daha yüksəkdən səslənməsini təmin edirlər.

Bəli, bu gün eldə, obada, bütün Azərbaycanda bayram-bayrama qarışıb. Bayramınız, mübarək, əziz dostlar, əziz həmvətənlər! İlləriniz bir-birindən uğurlu gəlsin! Yeni ilimiz taleyüklü problemimiz olan Qarabağın ana Vətənə qovuşması ili olsun!

2019-cu il – Donuz (Qaban) ilidir

Qarşıdan gələn 2019-cu il Donuz (Qaban) üstündə təhvil olur. Qaban Çin təqviminin Siçan, Öküz, Pələng, Əjdaha, İlan, At, Keçi, Meymun, Xoruz və İtdən sonra 12-ci – sonuncu ilidir. 2019-cu ilin heyvan-simvolu - Sarı Torpaq Donuzudur.

5 fevral 2019-cu və 24 yanvar 2020-ci il tarixləri arasında doğulmuş insanlar Şərq təqvimi üzrə Torpaq Qabanının nişanına aiddirlər. Bu ildə doğulanlar çox inadcıl və dözümlü olur, öz hədəflərinə çatmaq, mütləq uğur qazanmaq üçün səylə çalışırlar. Buna görə də onlar çox qiymətli işçi ola, müdiriyyət tərəfindən sevilə bilirlər. Sarı Torpaq Donuzu ilində doğulmuş insanlar, eyni zamanda, düşüncəli və ehtiyatlı olurlar. Onlar nəsə bir işə başlamazdan, yaxud bir fikir söyləməzdən əvvəl min dəfə düşünürlər.

Donuz ilinin balaları hamıyla mehriban və nəzakətli davranmağa çalışırlar. Onlar kömək üçün nadir hallarda müraciət etsələr də, başqalarına kömək etməkdən çəkinməzlər. Bu cür praktika həyatda donuzlara çox kömək edir. Onlar heç vaxt ətrafındakılara qarşı şübhə ilə yanaşmağı sevməzlər, buna görə də asan aldadılırlar.

Donuz çətin vəziyyətə düşdükdə sakit və təmkinli davranar, hətta ən ciddi problemlə üzləşdikdə onun həllinə ölçülü-biçili, ehtiyatlı yanaşar. Güclü məsuliyyət hissinə malik olması donuzlara başladığı işləri sona çatdırmaqda kömək edər.

Donuz üçün ən yaxşı dövr - payızdır, xüsusilə noyabr ayıdır. Qabanın rəngləri sarı, qızıl, boz və qəhvəyidir. Onun üçün xoşbəxt rəqəmlər isə 2,5 və 8 hesab olunur. Sevimli gülləri -- uğur çiçəkləri qızçiçəyi və hortenziyadır.

Ədəb, mehribanlıq, comərdlik, ünsiyyətçillik, qonaqpərvərlik, qaydalara riayət etmək – budur Qaban ilində doğulmuş insanların xarakterinin müsbət xüsusiyyətlərinin natamam siyahısı. Bundan başqa, simvolun nümayəndələri hər şeyi dəqiq təhlil etməyi sevirlər, buna görə onlarda, demək olar ki, heç vaxt maliyyə problemi olmur. Və yaxşı zövqə malik olmaları və dəbi lazımınca izləmək qabiliyyəti həmişə onların zərif və cazibədar görünməsinə imkan verir.

Qaban ilində dünyaya gələnlərin daha bir xarakterik xüsusiyyəti sadəlövhlükdür. Ailə qurmaq məsələsinə gəlincə, Qabanların Dovşanlarla və ya Qoyunlarla nikahı daha möhkəm olur.

Dünya yeni təqvim ilinə – 2019-cu ilə qədəm qoyur. Hər il dünyanın bir çox xalqları dekabrın 31-dən yanvarın 1-nə keçən gecəni böyük sevinc və ümidlərlə qarşılayırlar. İnsanlar Yeni il kimi bayram etdikləri bu əziz gündə deyib-gülür, şənlənir, sevdiyi adamlara qonaq gedir, hədiyyələr verirlər. Küçələrdə, mənzillərdə yolkalar bəzədilir, uşaqların səbirsizliklə gözlədikləri Şaxta baba və Qar qız evlərin əziz qonaqlarına çevrilirlər.

Yeni il əsrlərdən bəri Azərbaycan xalqının da əziz bayramlarından biridir. Soydaşlarımız bu bayrama hər dəfə böyük şövqlə hazırlaşır, həvəslə bayram süfrələri açırlar. Açığını desək, artıq insanlarımızın əsl bayram əhval-ruhiyyəsini yaşamaları üçün ölkədə lazımi şərait yaradılıb. Çox fərəhləndirici haldır ki, bu il Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 27-ci ili tamam oldu. Yola saldığımız son illər ölkəmizin tarixində ciddi sosial-iqtisadi və mədəni uğurlarla yadda qalıb. İstər Azərbaycanın paytaxtında, istərsə də regionlarda bir çox iri infrastruktur layihələri, Bakı şəhəri və regionlarımızın inkişafı ilə bağlı böyük proqramlar icra olunub və qarşıdakı illərdə də bu istiqamətdə işlər davam etdiriləcək.

2019-cu ili necə qarşılamalı?

Şərq təqviminə əsasən, 2019-cu ili qarşılayarkən onun himayəçisini düzgün seçmək, sarı çalarlı bəzəklərdən istifadə etmək lazımdır. Bayram ərəfəsində evinizi gözəl bəzəmək arzuolunandır. Eyni zamanda, Qabanın təsvirini mebellərin, divarların, yaxud adicə güzgülərin üzərinə yerləşdirmək olar.

Yeni il masasını rəngarəng yeməklərlə bəzəməyi də unutmaq olmaz. Çünki Torpaq Donuzu bolluğu sevir. Bu yemək-ləri hazırlayanda isə nəzərə almaq lazımdır ki, donuz ətindən başqa istənilən məhsuldan istifadə etmək olar. Amma arzuolunandır ki, masada sarı rəng üstünlük təşkil etsin. Buna görə yeməklərə daha çox tərəvəz – kök, limon, banan və sair əlavə etmək lazımdır. Yeni il masasında balıq da az miqdarda olmalıdır. 2019-cu ili himayəçini – Sarı Torpaq Donuzunu yalnız bu halda sevindirmək olar.

(ardı 6-cı səhifədə)

Rusiyalı astroloqlar 2019-cu ilin bürcləri ilə bağlı proqnoz hazırlayıblar. Həmin proqnozu təqdim edirik:

QOÇ

Maddi həyatlarında inkişaf olacaq, qarşılarında müxtəlif qapılar açılacaq. Onların karyeraları üçün mühüm dəyişikliklər gözlənilir, xarici ölkələrə səfər edə, arzu etdikləri şəxslərlə yeni əlaqələr qura bilərlər.

BUĞA

2019-cu il Buğa bürcü üçün dəyişiklik ili olacaq. Maddi məsələlərə diqqət etməsi lazımdır, çünki bu dəyişiklikdə pula ehtiyacı olacaq.

ƏKİZLƏR

Əkizlər üçün 2019 bəzi problemlərin növbəti illərə saxlanacağı bir il ola bilər, amma maddi qazanclar əldə etmək imkanları artacaq.

XƏRÇƏNG

Sağlamlıq və iş məsələlərində çox gözəl bir il keçirəcəklər. Bu bürcdən olanlar, eyni zamanda, yeni dostlar qazana biləcəklər.

ŞİR

Karyera məsələsində dəyişikliklər və nailiyyətlər gözlənilir. Şirlərin ailə həyatı da 2019-cu ildə maraqlı hadisələrlə zəngin olacaq.

QIZ

Qız bürcü üçün 2019-cu il təhsillə bağlı irəliləyişlərin yaşanacağı bir il ola bilər. Eyni zamanda, ailə münasibətlərində yaşanan bəzi problemlərin həlli üçün lazımi addımlar atılacaq.

TƏRƏZİ

Tərəzilər 2019-cu ildə çox yaxşı ünsiyyət quracaqlar. Bəzi dəyişikliklər ola bilər, bunun üçün pula ehtiyacları olacaq. İndidən təcrübə toplamaları onların xeyrinə olar.

ƏQRƏB

Əqrəb bürcünün həyatındakı problemlər 2019-cu ildə həll edilməyə başlayacaq. Maddi cəhətdən daha yaxşı təmin olunacaqlar.

OXATAN

Həm iş həyatındakı şərtlər, həm də sağlamlıq məsələlərində oxatanların diqqətli olması lazım olacaq. Karyera məsələlərində şansları çox yüksəkdir. Yaxşı istifadə etsələr, 2019 onlar üçün ən yaxşı il olacaq.

OĞLAQ

Bəzi məsələlərdə özlərini tarazlaşdırmaları lazımdır. Çətinlikləri başa çatacaq. Dalğavari bir dövr yaşayacaqlar. Bəzi aylarda şansları çox yüksək olacaq.

DOLÇA

2019-cu il Dolça bürcü üçün əsasən uğurlu olacaq, ailə-sevgi məsələlərində bir qədər çətinlik yarana bilər. Amma şanslı olduqları dövrlərdən yaxşı istifadə etsələr, gözəl bir il keçirə bilərlər.

BALIQLAR

2019-cu il bu bürc altında doğulanlar üçün də kifayət qədər fürsətlərlə dolu olacaq. Karyerada yüksəliş mümkündür.

Bütün soydaşlarımızı təbrik edirəm!

Ömər ELDAROV,
Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik, Xalq rəssamı

– Azərbaycanın siyasi-iqtisadi, sosial-mədəni həyatı son illər durmadan inkişaf edir. Respublikamızın daha da möhkəmlənməsi və bugünkü nailiyyətlərimiz ümummilli lider Heydər Əliyev siyasətinin nəticəsi, ulu öndərin ölkəmiz və xalqımız qarşısında tarixi xidmətidir. Bu gün bu strategiya möhtərəm Prezidentimiz İlham Əliyevin yüksək idarəçilik bacarığı, tükənməz enerjisi və işgüzarlığı, vətənpərvərliyi sayəsində daha da zənginləşərək, yüksək səviyyədə, uğurla həyata keçirilir.

Prezident İlham Əliyev incəsənət xadimlərinə hər zaman diqqət və qayğı ilə yanaşır və dövlət başçısının fəaliyyəti sayəsində Azərbaycan dünyada qədim mədəniyyətə və gözəl ənənələrə malik ölkə kimi tanınır.

Son illər müasir dünyamızda gedən prosesləri dövlətimizin milli maraqlarına yönəltməyi müvəffəqiyyətlə bacaran İlham Əliyev Azərbaycanın dünyada sürətlə inkişaf edən demokratik bir ölkə kimi nüfuz qazanmasını təmin edib. Onun mədəniyyət, təhsil və digər sahələrin dövlət standartlarına çatdırılması naminə gördüyü nəhəng miqyaslı işlər xalqımızın qəlbində böyük qürur və minnətdarlıq hissi doğurur.

Dövlətin gələcəyini təhsildə görən ölkə başçısı İlham Əliyev bu sahənin keyfiyyət baxımından səviyyəsinin yüksəldilməsi naminə uğurlu islahatlar həyata keçirib. Azərbaycanda gənc nəslin bilikli, savadlı olmasına, layiqli mütəxəssislər ordusunun yetişməsinə xidmət edən bu islahatlar ölkəmizin daha da güclənməsinə təkan verir. Hazırda təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün lazımi şərait yaradılıb ki, bu da həmin sahədə görülmüş işlərin bir nümunəsidir. "Təhsil bilik, gələcək və modernləşmədir" fikrini rəhbər tutan dövlətimizin diqqət və qayğısı nəticəsində onlarca gəncimizin xaricdə – Avropanın bir çox nüfuzlu universitetlərində təhsil alması Azərbaycan təhsilinə misilsiz töhfədir.

Təhsillə yanaşı, gerçəkləşən çoxlu sayda orijinal mədəniyyət layihələrinin uğurla həyata keçirilməsi prosesi də davam etməkdədir. Mədəniyyətin önəmli qolu olan təsviri sənətin inkişafı da dövlət başçımızın daim diqqət mərkəzində duran məsələlərdəndir. Onlarca mədəniyyət və incəsənət nümayəndəsinin sosial rifahının yaxşılaşdırılması sahəsində mühüm addımlar atılıb.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında respublikanın ən tanınmış heykəltəraş və rəngkarları, qrafik və dizaynerləri, dekorativ-tətbiqi sənətin bütün sahələrinin ən görkəmli nümayəndələri çalışırlar. Akademiyada yüksək ixtisaslı rəssam kadrlar hazırlanır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Rəssamlıq Akademiyası incəsənət mərkəzidir".

Yola saldığımız ildə bizim təhsil ocağımız müxtəlif səpgili tədbirlər həyata keçirib. Akademiyanın tərkibinə daxil olan muzey-sərgi kompleksi müntəzəm şəkildə həm ölkəmizdə, həm də xaricdə müxtəlif sərgilər, konfranslar, o cümlədən "Saf rənglər" V Beynəlxalq uşaq və yeniyetmələrin rəsm yaradıcılıq festivalı, "Birlik" beynəlxalq sərgisi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans-sərgi, "Türk – İslam sənətləri sərgisi", "Azərbaycan və azərbaycanlılar" adlı konfrans-sərgi, ADRA-nın tələbələrinin yaradıcılıq işlərindən ibarət sərgilər... təşkil edib.

Akademiyanın rəhbərliyi kadr seçimində ən istedadlı məzunların pedaqoji fəaliyyətə cəlb edilməsinə üstünlük verir.

Xalqımızı qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Qoy, 2019-cu il ölkəmizin dinamik inkişafında və xalqımızın sosial rifahının yaxşılaşdırılmasında, mədəni quruculuq işlərinin həyata keçirilməsində dövlət başçımızın uğurlu fəaliyyətinə bol-bol nailiyyətlər bəxş etsin.

Xalqımıza uğurlar arzu edirəm!

Gülçöhrə MƏMMƏDOVA,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor, Əməkdar memar

– Ölkəmiz üçün əlamətdar hadisələrlə zəngin olan daha bir ili yola salırıq, 2018-ci il tarixə qovuşur. Bu il də əhəmiyyətli hadisələrlə yaddaşlara yazıldı. Azərbaycan dünya miqyasında dinamik inkişaf tempinə malik olan ölkələr sırasında öz mövqeyini qoruyub saxladı. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadı.

2018-ci ilin ən yaddaqalan, tarixi hadisələrindən biri növbədənkənar prezident seçkiləri oldu, xalq növbəti dəfə öz Prezidentinə etimad göstərdi, Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin dəstəyi ilə dövlət başçısı İlham Əliyev yenidən ölkə Prezidenti seçildi. Bu ili Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini, Azərbaycan Milli Ordusunun yaranmasının və Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyini Azərbaycan və Türkiyə prezidentlərinin birgə iştirakı ilə yüksək səviyyədə möhtəşəm hərbi parad keçirməklə qeyd etdik. "Cümhuriyyət ili" çərçivəsində müsəlman-Şərq aləmində ilk dəfə yaradılan parlamentin – AXC Parlamentinin 100 illiyi müstəqil Azərbaycan Respublikası Milli Məclisinin xüsusi, təntənəli iclası ilə qeyd olundu.

Ölkəmiz 2018-ci ildə nəinki bölgənin, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinin təminatında böyük rol oynayacaq bir sıra uğurlara imza atdı. Səngəçal terminalında Azərbaycan Prezidentinin iştirakı ilə Cənub Qaz Dəhlizinin tarixi rəsmi açılış mərasimi keçirildi və bununla da Azərbaycanın Avropanın enerji təhlükəsizliyi təminatında əsas tərəflərdən biri olduğu bir daha təsdiqləndi. Bundan çox qısa müddət sonra TANAP-ın rəsmi açılış mərasimi keçirildi. Bu istiqamətdə növbəti addım kimi, oktyabr ayının 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti nümunəsi olaraq, nəhəng "STAR" neft emalı zavodunun açılış mərasimi reallaşdı.

2018-ci ildə Azərbaycanın müstəqil və çoxşaxəli xarici siyasət kursu Azərbaycanı Cənubi Qafqaz regionunun aparıcı və ən inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" sənədində respublikamızın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Avropa İttifaqından Azərbaycana önəmli dəstəyin ifadə olunması yola saldığımız ilin uğurlarındandır. Həmçinin ölkə Prezidenti İlham Əliyevin də iştirak etdiyi NATO Zirvə görüşünün yekun bəyannaməsində Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləməsi, 22 illik Xəzər müzakirələrinin müsbət sonluğu – Aktau Konvensiyasının imzalanması ilə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi və digər uğurlarımız xarici siyasət kursunun düzgün aparıldığının təsdiqidir. Bu gün Azərbaycan qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi edən, bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır.

Ölkəmizin təhsil sistemi də inamlı inkişaf yolu ilə gedir. Noyabr ayında Azərbaycan Prezidenti tərəfindən imzalanmış "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə" Dövlət Proqramı ali təhsilimizin daha sürətli inkişafı və beynəlmiləlləşməsi istiqamətində atılmış mühüm addım oldu.

2018-ci il Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) üçün də düşərli il oldu. Bu il Avropanın bir neçə universiteti ilə əməkdaşlıq memorandumları, ikili diplom müqavilələri imzaladıq. Cari ilin iyul ayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində hər iki ölkənin prezidentlərinin iştirakı ilə "Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə İtaliyanın Milan Politexnik Universiteti arasında Anlaşma Memorandumu" da imzalandı. 2018-ci ildə dünyanın nüfuzlu universitetlərinin reytinq təşkilatlarının siyahısına daxil edildik. Böyük Britaniyanın Ümumdünya Universitetlərinin reytinq cədvəli (QS World University Rankings) illik göstəricilərinə görə AzMİU-nu dünyanın ən yaxşı universitetləri ilə birgə bu siyahıya daxil edib. Yeni ilin astanasında daha bir yaxşı xəbər aldıq: "UI Green Metric World University" reytinq bazası AzMİU-nu Azərbaycandan ilk olaraq dünyanın ən ekoloji universitetləri siyahısına daxil edib. Tələbələrimizin təhsildə uğurları ildən-ilə artır, onlar ölkə daxilində, eləcə də onun sərhədlərindən uzaqda öz biliklərini və bacarıqlarını nümayiş etdirirlər.

Sonda möhtərəm Prezidentimiz başda olmaqla xalqımızı, bütün dünya azərbaycanlılarını 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə təbrik edirəm, hər birinizə cansağlığı, xoş günlər, firavanlıq, işlərinizdə uğurlar arzu edirəm. Ümidvaram ki, qədəm basacağımız 2019-cu ildə ölkə Prezidenti İlham Əliyevin siyasətinin daha böyük nəticələrinin şahidi olacağıq. Hər yeni il özü ilə bərabər yeni ümidlər, yeni arzular doğurur. Arzu edək və inanaq ki, növbəti ildə 31 illik münaqişə Azərbaycan xalqının gözlədiyi, arzuladığı və ümid etdiyi sülhlə bitəcək!

(əvvəli 5-ci səhifədə)

Yeni ili qeyd etmək ənənəsi ilk dəfə harada və nə vaxt meydana gəlib? Gəlin, lap əvvəldən başlayaq. Belə fərziyyələr var ki, Yeni il bayramı ilk dəfə 5 min il bundan əvvəl Mesopotamiyada qeyd edilib. Bu qədim ölkə şumer, babil, assur mədəniyyətlərinin mərkəzi kimi məşhurdur. Mesopotamiyada əkin işləri martın sonunda, Dəclə və Fərat çaylarında su artandan sonra başlanırdı. Bu hadisə 12 gün ərzində təntənəli yürüşlərlə, şənliklərlə qeyd edilirdi. Qədim yəhudilər Yeni ilin bayram edilməsini babillilərdən, yunanlar isə yəhudilərdən öyrənmiş, Qərbi Avropaya da bu ənənə yunanlardan keçmişdir.

Qədim romalılar hələ bizim eradan əvvəl Yeni il gecələrində səhərə qədər şənlik edir, tanış və dostlarına xoşbəxtlik diləyirdilər. Arxeoloqlar qədim Misir piramidalarında qazıntı işləri zamanı üzərində "Yeni ilin başlanğıcı" sözü yazılmış qab tapmışdılar. Qədim Misirdə Yeni il Nil çayı daşan zaman (təqribən sentyabrın axırında) bayram edilirdi. Nilin daşması çox mühüm hadisə hesab olunurdu. Çayın daşması sayəsində susuz səhraların cana gəlməsi bol taxıl məhsulu əldə olunacağından xəbər verirdi. İnsanlar Yeni ildə Tanrı Amonun, onun arvadının və oğlunun kiçik heykəllərini minnətdarlıq əlaməti olaraq qayığa qoyurdular. Qayıq Nil çayı boyu çalçağırın müşayiəti ilə bir ay üzəndən sonra heykəlcikləri yenidən məbədə qoyurdular.

Romalılar imperator Yuli Sezarın yeni təqvimi tətbiq etməsinədək Yeni ili martın əvvəlində bayram edirdilər. Sezar eramızdan əvvəl 45-ci ildə Misirdə olarkən bu ölkə sakinlərinin təqvimi ilə tanış olmuşdu. Bu təqvim 365 gündən və 12 aydan ibarət idi. Salnaməçilər yazırlar ki, Sezar bu tanışlıqdan sonra dərhal yeni təqvimin hazırlanması barədə əmr vermişdi.

O da bəllidir ki, bəzi xalqlar Yeni il bayramını müxtəlif vaxtlarda qeyd edirdilər. Məsələn, qədim Yunanıstanda bayram ilin ən uzun gününə – 22 iyuna düşürdü. İngiltərədə isə bayram şənliklərinə baharın ilk günündə – martın 1-də başlayırdılar. Fransada Yeni ilin gəlişini Böyük İnqilab Günü, yəni Respublikanın yarandığı 22 sentyabrda bayram edirdilər.



İllər, arzular, ümidlər

Hər bir xalqın Yeni ili qarşılama ənənəsi var. Məsələn, italyanlar Yeni ili bayram etməzdən öncə mənzillərindəki bütün köhnə əşyaları pəncərədən küçəyə tullayırlar. Köhnə əşyaların yerini təzə alınmış mebellər tutur.

Yaponlar hesab edirlər ki, Yeni ilin ilk saniyələrindən başlayaraq gülmək adama uğur gətirir. Yaponiyada Yeni il gecəsi 108 dəfə zəng çalmaq adəti mövcuddur. Qədim inanclara görə, vurulan hər bir zəng insan qüsurlarından birini "öldürür". Yaponlar hesab edirlər ki, insanın altı qüsuru olur: simiclik, axmaqlıq, qərəz, yelbeyinlik, qətiyyətsizlik, paxıllıq. Və bu qüsurların hər birinin 18 müxtəlif çaları mövcuddur. Yaponlar Yeni ildə öz yaxınlarına məhz bu qüsurlardan azad olmalarını arzulayırlar. 6-nı 18-ə vuranda 108 alınır. 108 rəqəmi və bu qədər zəng çalmaq ənənəsi də məhz buradan yaranıb.

Asiyanın ən böyük ölkəsi olan Çində də Yeni il bayramı qədimlərdən bəri böyük təmtəraqla, atəşfəşanlıqla qeyd edilir. Çinlilər bununla ümid edirlər ki, Yeni ilin gəlişinə mane olmağa cəhd edən şər qüvvələri qovurlar. Avropalılardan fərqli olaraq çinlilər yolka bəzəmirlər, əvəzində bayram süfrələrinə narıngi və portağalla dolu məcməyilər düzürlər.

Yeni il bayramı polyak xalqının da sevimli bayramıdır. Polyaklar Şaxta babanı Silvestr Klaus adlandırırlar. Onların inancına görə, bu, həmin Silvestr adlı məşhur nağıl qəhrəmanıdır ki, Levifian adlı vəhşiyə qələbə çalaraq həmvətənlərini dəhşətli bəlalardan xilas edib.

Qeyd etmək yerinə düşərdi ki, 1927-ci ildə Milad bayramı keçmiş SSRİ məkanında rəsmi bayram kimi ləğv olunmuşdu. 1936-cı ildən isə Yeni il təqvim ili kimi qeyd edilir. O zaman keçmiş ittifaqda Yeni il iki gün ərzində bayram edilirdi. Rusiyanın indiki rəhbərliyi isə Yeni il tətillərini 10 günə çatdırıb ki, bundan da sadə insanlar öz istirahətləri üçün istifadə edirlər. Üstəlik, ruslar 13 yanvarda "Köhnə Yeni ili" də qeyd etməkdən vaz keçmirlər.

Dünya xalqlarının bir çoxunda, xüsusən də, Afrikada Yeni ilin qarşılanması gecəsi fit və çəpik çalmaq, hay-küy qoparmaq, tullanıb-düşmək, haray-həşir salmaq adət-ənənələri vardır. Yəqin ki, bu ənənələr bütpərəstlik zamanından mövcuddur. Qədim insanlar əcinnələri və digər şər qüvvələri qovmaq üçün bu üsullara əl atırdılar.

Şaxta baba, şaxtacan...

Bəllidir ki, Yeni il şənlikləri turistləri cəlb etmək üçün yaxşı fürsət hesab olunur. Buna görədir ki, bir çox ölkələr bayramın əsas rəmzlərindən olan Şaxta babaya "sahib çıxmağa" cəhd edirlər. Ən çox da şimal xalqları iddia edirlər ki, ilk Şaxta babalar məhz onların ölkəsində peyda olublar.

Məsələn, finlər bütün dünyaya car çəkirlər ki, Santa Klaus, yəni Şaxta baba onların həmvətənidir. Onların inanclarına görə, Santa Klaus Finlandiyanın qütb dairəsinə yaxın ərazilərdəki hündür küknar ağacları ilə əhatə olunan, bəmbəyaz qardan "ağ libas" geyinmiş Laplandiya adlanan möcüzəli bir yerdə yaşayır. Finlər düşünürlər ki, Santa Klaus hər il dünya ölkələrinə səyahətini məhz Laplandiyadan başlayır.

Finlandiyada Yeni il şənlikləri dekabrın 25-dən, yəni Milad bayramı günündən başlanır. Dekabrın 31-i, Yeni il axşamı isə ölkə paytaxtı Helsinkidə nağıl və əsatir qəhrəmanlarının libaslarını geyinmiş həvəskar aktyorlar teatr məzhəkələri göstərirlər. Həmin gecə hədiyyə dolu xurcunu ilə Santa Klaus şimal maralları qoşulmuş xizəkdə Helsinkinin mərkəzi meydanına təşrif buyurur. Meydanda dərhal alqış səsləri eşidilir, şən mahnı sədaları ətrafa yayılır. Məhz fin təbliğatının nəticəsidir ki, bayram günlərində dünyanın hər yerindən Santa Klausun vətəninə – Finlandiyaya, həqiqətən, çoxlu turist gəlir.

Yeni ili "Laplandiya"da keçirən əcnəbi qonaqlar etiraf edirlər ki, burada bayram etməyin ayrı səfası var! Özünüzü bir anlığa rəngbərəng oyuncaqlar bərq vuran Yeni il yolkasının başına dolanan uşaqların, övladlarına baxıb sevinən gənc ata-anaların və birbirini sevən gənclərin yanında hiss edin. Göydən isə iri, yupyumru qar dənələri ələnir. Heç kəs soyuğu, şaxtanı vecinə almır. Hamı gülür, sevinir. Romantik səhnədir, deyilmi?

Məsaim ABDULLAYEV,
Paşa ƏMİRCANOV,
Elçin ABBASOV,
"Xalq qəzeti"

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

❒ ***Bəşəriyyət zaman-zaman öz mövcudluğunu ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru təkamül etdirməklə həyatın özünü də durmadan dəyişməkdə və inkişaf etdirməkdədir. Günlər, aylar, illər bir-birini əvəz etdikcə biz də dəyişirik. Bu dəyişikliklər çevrəsində özümüzün, cəmiyyətimizin və dövlətimizin həyatını zaman və məkan ölçülərində hissələrə bölür, itirdiklərimizlə qazandıqlarımızı dəyərləndirməyə çalışırıq. Adətən, biz bunu bəlli zamanlarda və daha çox hər dəfə başa vurmaqda olduğumuz illərin sonunda edirik.***

Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən!

Heydər ƏLİYEV
Ümummilli lider

Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Milli birliyimiz və həmrəyliyimiz dövlət müstəqilliyimizin möhkəm təməlidir

Bu gün də illərin ayrıcında – eyni zamanda, qovşağındayıq. Hamımız birlikdə bir il yaşlaşır və məntiqə görə, bir qədər müdrikləşirik. Hələlik zaman 2018-ci ilin axırı – 2019-cu ilin astanası, məkan isə əbədi məskənimiz Azərbaycandır. Bu il müstəqil Azərbaycanımız bir yaş da böyüdü. Bu il çoxminillik dövlətçiliyimizin bərpasının 100-cü, 1920-ci ildə süquta uğradılmış müstəqil dövlətimizin yenidən dikəldilməsinin isə 27-ci ildönümünü tarixi uğurlarımızın yaratdığı möhtəşəm təntənələrlə il boyu qeyd etdik. İlin nikbin sonluğu isə dünya azərbaycanlılarının ən nikbin baxışlı öndəri Heydər Əliyevin həmrəylik çağırışının dünyanın hər tərəfindən gələn əks-sədaları ilə tamamlanır.

Həmrəylik anlayışı bizə sovet zamanında "dünya zəhmətkeşlərinin həmrəyliyi" şüarı şəklində məlum olsa da, əslində, o həmrəyliyin məna-məzmunu hamımıza yad və saxta görünmüşdü. Zaman son nəticədə o insanların heç də həmrəy olmadığını və əslində, belə bir həmrəylik üçün heç bir real əsasın da olmadığını göstərmişdi. Milli idealın və bu ideal uğrunda çarpışan ideyalogiyamızın mövcud olmadığı bir zamanda biz nədə həmrəy ola bilərdik?!. O zamanlar ortada heç bir real rəy olmadığından, əslində, hamımız bir şeydə – məhz rəysizlikdə həmrəy imişik.

İndi isə dünya azərbaycanlılarının həmrəyliyini gerçək bir bir ideal olaraq bayram edirik. Bu həmrəyliyimizin əsasında bir çağırışla böyük Vətənimizi parça-parça hissələrdən toparlayıb vahid bir gücə çevirməyə və Yer kürəsinin hər bir guşəsində qərar tutmuş soydaşlarımızı da Azərbaycan amalı ətrafında səfərbər etməyə nail olmuş Heydər Əliyev zəkası və məramı durur. Yalnız bu il yox, elə 1993-cü ildən başlayaraq taleyimizdə yaşanan dönüş, bu günə qədər davam edən yüksəliş və tərəqqi də məhz milli həmrəyliyimizin bəhrəsidir.

Həmrəylik də bir mədəniyyətdir. Dinləmək, başqalarına məxsus olan dünyagörüşünü və baxış bucağını bölüşmək, milli mənafeyimiz naminə ümumxalq yolunu seçmək. Vətən üçün düşünmək, el üçün çalışmaq mədəniyyətidir həmrəylik. Həmrəylik həm də ictimai, məfkurəvi bir sevgidir. Xalqa, dövlətə, bayrağa və nəhayət, insana olan sevgidir həmrəylik. Bu sevgi ilə də soydaşlarımız ilin son günündə ən xoş arzularla dolu nəzərlərini Ana Vətənə yönəldir və Azərbaycanımızla fəxr edirlər. Beləcə, həyatımızın daha bir ilini başa vurmaqda və Yeni ilə addımlamaq ərəfəsində – illərin qovşağındayıq.

Əvvəla, ilin ən böyük hadisəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi təntənələrinin və Prezident İlham Əliyevin bu münasibətlə "Cümhuriyyət ili " elan etdiyi 2018-ci ilin yekunu olaraq, bu şanlı tarixin və onunla bağlı yaşantılarımızın məna-mahiyyətinə bir daha qısaca nəzər salaq.

1918-ci ilin 28 mayında müsəlman Şərqində ilk demokratik, dünyəvi respublikanın yaradılması nə qədər əlamətdar hadisə idisə, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülündən sonra baş verən hadisələr zənciri də öz əhatəliliyinə, təsir dairəsinə, siyasi-mənəvi yükünə görə bir o qədər vacib əhəmiyyət daşıyırdı. Olduqca mürəkkəb siyasi-hərbi şəraitdə istiqlaliyyəti elan edilən Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən demokratik, hüquqi dövlət quruculuğu, universal insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilməsi çar mütləqiyyətindən qurtulmuş digər xalqların da yeni dövlətçilik təcrübəsinin formalaşmasına, modernləşən dünya praktikasına uyğunlaşmasına ciddi təsir göstərdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqımızın istiqlaliyyət arzusu ilə əlaqələndirən Heydər Əliyev söyləyirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin

sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır."

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu xalqımızın dünyəvi-universal dəyərlərə bağlılığını, istiqlal əzmini sarsıtmadı, əksinə, öz mübarizəsini yeni siyasi şəraitdə daha uyğun platformalarda aparmağa ruhlandırdı. Cümhuriyyətin süqutundan sonra həyatını itirmiş, əksəriyyəti isə 1920-ci ildə bolşeviklər tərəfindən öldürülmüş insanlar, əslində, böyük millət qəhrəmanlarıdır. Azərbaycanın siyasi mühacirətinin nümayəndələri isə cümhuriyyət ideyalarının yaşadılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində yorulmaz səylərini davam etdirdilər. Azərbaycan Xalq Cümhuriyyəti zaman baxımından az müddətdə mövcud olsa da, mahiyyət etibarilə Azərbaycan xalqının dövlətçilik təfəkküründə dərin izlər buraxdı.

1991-ci ildə milli müstəqilliyimizin bərpa edilməsindən sonra milli dövlətçilik tariximizin qürur mənbəyi olan Azərbaycan Xalq Cümhuriyyəti irsinin dərindən araşdırılması istiqamətində mühüm addımlar atılmış, cümhuriyyət dövründə hökumətdə təmsil olunmuş nümayəndələrin və digər milli aydınların həyat və fəaliyyətinə dair yüzlərlə araşdırma işıq üzü görmüşdür.

Bu gün siyasi sabitliyin, dayanıqlı inkişafın mərkəzi olan Azərbaycan Respublikası – varisliyinin şərəfini bayrağından ideallarınadək qürurla daşıdığı Azərbaycan Xalq Cümhuriyyəti dövründə gerçəkləşdirilməsi mümkün olmayan ideya və məqsədləri əzmkarlıqla həyata keçirməkdədir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və mövcudluğu uğrunda mübarizə aparmış şəxsiyyətlərin ruhuna ən böyük ehtiram da məhz demokratik, hüquqi dövlət quruluşunun əsaslarını möhkəmləndirməkdən, insan inkişafına əsaslanan rifah dövləti yaratmaq uğrunda ardıcıl fəaliyyəti davam etdirməkdən ibarətdir.

Bu gün xalqımızın siyasi-mədəni, sosial-iqtisadi uğurlarının özülünü milli birlik və həmrəylik ideyası təşkil edir. Müasir milli həmrəylik ideologiyamızın mahiyyətində isə hələ qədim Dədə Qorqud eposunda təsvir olunmuş əcdadlarımızın tarixi təcrübəsindən süzülüb gələn və universallaşmaqda olan yurd birliyi hissləri dayanır. "Çal qılıncını, Qazan xan, gəldim!" - deyə dar gündə bir-birinin harayına yetişən ulu babalarımızın yurd birliyi hissləri böyüyüb milli həmrəyliyə çevrilməsəydi, dünyanın ən mürəkkəb geosiyasi məkanlarından birində – Cənubi Qafqaz – Xəzəryanı bölgədə Azərbaycan dövlətini yaratmaq, qorumaq və beynəlxalq birliyin xalqımızı mübarizəyə qaldırmış və həmrəylik ideallarının yenilməzliyini bir daha sübut etmişdir.

Ən yaxın keçmişimizdə hələ Sovet İttifaqının çökdüyü, milli münaqişələrin kəskinləşdiyi, ermənilərin Vətən torpaqlarımıza haqsız iddia qaldırdığı, millətimizin təkləndiyi sarsıntılı günlərdə – 1989-cu il dekabrın axırlarında Azərbaycan xalqı dövlətinin gələcək nicatını düşünərək və tarixi ərazisinin bölünməsinə "yox!" deyərək SSRİ-nin və İranın Naxçıvandan keçən sərhədi boyunca böyük yürüşə başladı. Birlik idealının hakim kəsildiyi xalq Araz çayının hər iki sahilində tikanlı dəmir məftilləri qırıb tökdü, Azərbaycanın Şimalı və Cənubu arasındakı sərhəd direklərini yerindən oynatdı.

İki totalitar rejimin yaratdığı vahimənə, iki yüz il davam edən əsarət xofuna sinə gərən azərbaycanlılar həftələrlə sərhəd zolağında toplaşaraq, birlik şüarları səsləndirdilər. Hər iki taydan soydaşlarımız Arazı keçərək əl-ələ tutdular, milli həmrəyliyin görkünü yaratdılar. Arazı yurdumuzu bölən deyil, birləşdirən çay rəmzinə çevirdilər. Azərbaycanlıların milli azadlıq və imperiya rejimlərinə müqavimət hərəkatı bütün dünyada rəğbətlə qarşılandı və elə həmin 1989-cu ildə dünyanın kütləvi informasiya vasitələri məhz bu əzmkarlığına görə o taylı-bu taylı həmvətənlərimizi "dünyanın ən mübariz xalqı kimi" qələmə verdi.

Bu hərəkata dəstək olaraq İstanbulda konfrans keçirildi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunması ideyası aktuallaşdı. Bu möhtəşəm milli birlik aktını tarixiləşdirmək missiyasını isə böyük siyasətçi Heydər Əliyev həyata keçirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev 1991-ci ilin 16 dekabrında bir xalqı ikiyə bölən sərhədlərin söküldüyü tarixi-- 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev "Kitabi-Dədə Qorqud"dan başlayaraq klassik fikir abidələrimizdə xalqımızın ali mənəvi keyfiyyəti kimi bəslənilib yetişdirilən milli birliyin bu yenilməz təməli üzərində sonrakı illərdə həmin birliyin çağdaş ideologiyasını-- azərbaycançılıq ideologiyasını irəli sürdü və milli həmrəylik salnaməmizin XXI əsr səhifəsini yazdı.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü planetimizin ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizi milli idealımız-- Azərbaycan və azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyə qadir oldu. Ulu öndərimizin Azərbaycan xalqı qarşısında böyük tarixi xidmətlərindən biri də bu idi: öz stixiyasında kortəbii şəkildə coşan milli azadlıq hərəkatını qanunauyğun məcrasına salaraq, böyük enerjiyə çevirmək, onu nəticə verən proseslərə, başlıcası – dövlət quruculuğuna yönəltmək. Ona görə də Azərbaycan Respublikasının müstəqilliyinin 27 ili həm də məhz həmin dövrdən etibarən, dünya azərbaycanlılarının getdikcə daha yüksək səviyyədə təşkilatlanması tarixi olmuşdur.

Əvvəlki 10 il ərzində ümummilli lider Heydər Əliyevin, 2003-cü ildən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünya azərbaycanlılarının təşkilatlanması dövlətimizin yürütdüyü milli siyasətin mühüm tərkib hissəsi olmuşdur. Bu müddətdə diasporla iş üzrə ayrıca dövlət komitəsi yaradılmış, dünyanın, demək olar ki, bütün mühüm ölkələrində Azərbaycan diasporunun koordinasiyalı beynəlxalq şəbəkəsi və informasiya məkanı formalaşdırılmış, diaspor hərəkatı bir orqanizm şəklinə gətirilmişdir. Tariximizdə ilk dəfə olaraq Dünya Azərbaycanlılarının 4 qurultayı (2001, 2006, 2011 və 2016-cı illərdə) və çoxsaylı konfranslar, konqreslər, forumlar keçirilmiş, strateji istiqamətdə vacib qərarlar qəbul edilmişdir.

Ümummilli lider Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayındakı tarixi nitqində "Müstəqil Azərbaycan dövlətinin əsas ideyasının - azərbaycançılıq" olduğunu təntənəli şəkildə bəyan etmişdir. Sonrakı 3 qurultayda Prezident İlham Əliyevin söylədiyi nitqlər diaspor hərəkatını gücləndirmək üçün proqram əhəmiyyəti daşımışdır. Görülmüş məqsədyönlü işlərin nəticəsində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dünyanın 70-dən çox ölkəsində 50 milyonluq soydaşlarımızın və beynəlxalq ictimaiyyətin bayram etməsi artıq bir ənənə halını almışdır.

Artıq xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının sayı 500-ə çatmışdır. Azərbaycan milli siyasətinin bu geniş diaspor şəbəkəsi ilə bağlı əsas strategiyası ölkədə və xaricdə yaşayan azərbaycanlıların dünyamiqyaslı həmrəyliyinə nail olmaq, bu həmrəyliyi dövlətimizin daha da qüdrətlənməsinə, onun milli maraqlarının beynəlxalq səviyyədə qorunmasına, həmvətənlərimizin mədəni-siyasi hüquqlarının müdafiəsinə, soydaşlarımızın dünyanın hər yerində öz milli xüsusiyyətlərini nəinki saxlamasına, həm də inkişaf etdirməsinə səfərbər etməkdən ibarətdir. Beynəlxalq münasibətlər sistemində özünəməxsus inkişaf perspektivləri olan Azərbaycan bu sistemə yeni məzmun və forma verən qloballaşmanın reallıqlarını bütün dərin mahiyyəti və kompleks şərtləri ilə nəzərə alır.

Biz fəxr edə bilərik ki, Azərbaycandan kənarda-- başqa ölkələrdə yaşayan və çalışan azərbaycanlıların mütləq əksəriyyəti öz ata yurduna bağlı insanlardır. Azərbaycan Respublikasının suverenlik əldə etməsi, ötən iyirmi ildə böyük inkişaf yolu keçməsi, müstəqil siyasət yeritməsi, qlobal siyasi, iqtisadi və mədəni inteqrasiyanın mərkəzdövlətlərindən birinə çevrilməsi və bütün bunların nəticəsi olaraq, dünyanın hər bir yerində yaşayan yurddaşlarımızla Vətən arasında doğma münasibətlərin qurulması, onlar üçün burada hər cür əlaqələri inkişaf etdirməyə şəraitin yaradılması, müstəqil Azərbaycan naminə beynəlxalq miqyasda çalışmalarına dövlətimizin güclü stimul verməsi, əlbəttə ki, respublikamızda və ya başqa bir ölkədə məskunlaşmasından asılı olmayaraq, hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi və milli qürur hissi yaradır.

Azərbaycan naminə həmvətənlərimizin birləşib güclənmə zərurəti həm də müstəqil dövlətimizin qarşılaşdığı ən böyük problemdən-- ermənilərin torpaqlarımızın bir hissəsini işğal etməsi, onu heç vəchlə qaytarmaq istəməməsi və bununla da beynəlxalq hüququn müvafiq normalarını cinayətkarcasına pozması faktından qaynaqlanır. Məhz bu məsələdə dünya azərbaycanlılarının maraqları mütləq şəkildə birləşir və burada heç bir fikir ayrılığı yoxdur. Həmin maraqların təmin olunmasına yönəlmiş təşəbbüslərin vahid bir məqsəd ətrafında səfərbər edilməsi bu gün dünya azərbaycanlılarının fəaliyyətinin məğzini təşkil edir.

Heç şübhəsiz ki, bu təşəbbüslərin əlaqələndirilməsi daha yetkin və kəsərli formada aparılmalıdır. Dərindən duyduğumuz bu zərurət səbəbindən son dövrdə Azərbaycan diasporu özünün strateji məqsədlərində xeyli irəli getmiş, dünyanın ən təhlükəli diasporlarından biri olan, yalnız dar millətçilik maraqlarından çıxış edən erməni diasporuna layiqli cavab verə biləcək qədər güc toplamışdır. Bəllidir ki, Ermənistan təkbaşına Azərbaycan torpaqlarını heç cür işğal edə bilməzdi. Bu işğalı "təşkil edən" əsas təhrikçi qüvvələrdən biri məhz maliyyə və altsiyasət vasitələrini uzun zamanlar yaradaraq hazır vəziyyətə gətirən erməni diasporu olmuşdur.

Bütün bunlar o deməkdir ki, hazırkı vəziyyətdə Azərbaycan Respublikasının Ermənistandan bütün parametrlər üzrə qat-qat güclənməsi bizim diasporumuzun da düşmən diasporunu qat-qat üstələməsi faktında öz təsdiqini tapmalıdır. Bu, həm də strateji planda ona görə lazımdır ki, Azərbaycan öz torpaqlarını, nəyin bahasına olursa-olsun, işğaldan azad etdiyi təqdirdə beynəlxalq siyasət, hüquq və diplomatiya müstəvisində erməni arsenalını neytrallaşdırmaq və dağıtmaq mümkün olsun. Bu gün isə diasporumuzun əsas məramı Azərbaycan həqiqətlərini özünün gerçək dəyərində və gərəyində dünyaya təqdim etməkdən və Qarabağ məsələsinə görə qaçılmaz olan daha ciddi sınaq və mübarizələri proqramlaşdırmaqdan ibarətdir.

Yurdumuzun demokratik dünya birliyinə və iqtisadiyyatına inteqrasiyası; qlobal enerji layihələrinə ölkəmizdən start və ciddi dəstək verilməsi, dünyanın güc mərkəzlərindən sayılan Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun önəmli dərəcədə artması; tarixi tolerantlıq zəmininde mədəniyyətlər, vətənimizdə sivilizasiyalar və dinlərarası dialoq mühitinin yaradılması, multikultural dəyərlərin bəşəri örnəyə çevrilməsi; dövlətimizin siyasi, iqtisadi və intellektual potensialının artması kimi güclü amillər dünya azərbaycanlılarının daha böyük imkanlar əldə etməsinə, bu proseslərə dünyanın hər yerindən fəal şəkildə qoşulmasına maksimum şərait yaradır. Ölkəmizin dinamik inkişafı prosesində xalqımızın yaratdığı böyük milli mədəniyyətin və onun bəşər sivilizasiyası ilə bütün zamanlardakı qırılmaz bağlılığının, dünyaya açıqlıq psixologiyasının tarixi və müasir əhəmiyyətini daha dərindən anlayır və qiymətləndiririk.

Bəşəriyyət ailəsində özünü həmişə onun yaradıcı qüvvəsi kimi hiss edən azərbaycanlıların eklektik formada deyil, təbii şəkildə və yüksək səviyyədə millilik və ümumbəşərilik xüsusiyyətləri, tarixən olduğu kimi, bu gün də onlara imkan verir ki, dünyanın istənilən ölkəsində cəmiyyətin elitası ola bilsinlər. Müasir azərbaycanlının universal keyfiyyətləri ona dünyanın bütün qapılarını açır. Onun milli və ümumbəşəri dünyagörüşündəki bu vəhdət inkişaf edərək universallaşan Azərbaycanla qloballaşan dünya arasındakı üzvi inteqrasiyanın mühüm şərti, itirilməz dəyərdir.

Xalqımızın bu unikal keyfiyyətlərindən həmişə iftixarla söz açan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının qurultaylarındakı çıxışlarında diaspor siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini təhlil etmiş, ümumən xaricdə yaşayan həmvətənlərimizlə ölkəmiz arasındakı dərin münasibətləri daha da inkişaf etdirməyin strategiyasını müəyyən etmişdir. Dövlət başçısının "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı həm də diaspor quruculuğu istiqamətində mühüm əhəmiyyət kəsb edir. Dünya azərbaycanlıları həmin prosesin fəal iştirakçısı olaraq, özlərinin milli intellektual potensialı ilə dövlətlərarası münasibətləri inkişaf etdirmək işinə getdikcə daha fəal qoşulurlar. Xaricdəki soydaşlarımız bu münasibətləri elə səviyyəyə qaldırmağa çalışırlar ki, həmin proseslər Azərbaycan dövlətinin milli mənafelərinin uca qüdrətli milli dövlətinə – müstəqil və qüdrətli Azərbaycana arxalanan dünya azərbaycanlılarının da milli, regional və qlobal səviyyədə manevr və fəaliyyət imkanları yüksəlir. İndi təkcə azərbaycanlılar deyil, onların vasitəsilə ölkəmiz haqqında dürüst məlumat qazanan digər millətlərin nümayəndələri, dövlətlərdə və beynəlxalq təşkilatlarda müəyyən məsul vəzifələri icra edən şəxslər də Azərbaycanın milli maraqlarının müdafiəsində lazımi mövqeyi sərgiləyirlər. Bu istiqamətdə Azərbaycanın xeyirinə lobbiçilik hərəkatını bundan sonra daha da fəallaşdırmaq və genişləndirmək xüsusi əhəmiyyət kəsb edir.

Son 15 ildə dünyanın kütləvi informasiya vasitələrində

tutulması üçün beynəlxalq platformanı daha da möhkəmləndirsin və sarsılmaz etsin.

Dövlət başçısı bu sahədə daha ciddi uğurlar qazanmaq üçün bildirmişdir: "Səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır". Çünki yalnız belə olduqda, hər iki istiqamətdə bir sıra problemləri aradan qaldırmaq, vətənlə xarici dövlətlər, ölkə vətəndaşları ilə xaricdə yaşayan həmvətənlərimiz arasında münasibətlərin səmərəli formalarını yaratmaq və inkişaf etdirmək mümkündür. Ölkə başçısı, eyni zamanda, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın o ölkələrin daxili siyasətində iştirak etmələrinin vacibliyini diqqətə çatdıraraq göstərmişdir ki, "Azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır".

Beynəlxalq şəraiti, qlobal siyasətin inkişaf təmayüllərini, burada hansı proseslərin üstünləşməsinə əhəmiyyət verildiyini dəqiq bilən və düzgün qiymətləndirən ölkə rəhbərimiz belə bir mühüm istiqamətdə də həmvətənlərimizin fəaliyyətinə təkan və ruh verir. Dövlət başçısı bəyan etmişdir: "Bu gün Azərbaycanın iqtisadi imkanları genişlənir. Bizim investisiyalarımız indi nəinki Azərbaycanda, eyni zamanda, xarici ölkələrə də qoyulmağa başlamışdır. Bu da bizim strateji iqtisadi və siyasi addımlarımızdan biridir. Hesab edirəm ki, şirkətlərimiz xaricdə güclənən zaman orada yaşayan azərbaycanlılar bu işlərə daha da çox cəlb ediləcəklər".

Bütün bunlar ölkə Prezidentinin xaricdə yaşayan həmvətənlərimizə verdiyi yüksək siyasi zəmanətdir: Gəlin, həm Azərbaycan kapitalından istifadə edin, həm də öz kapitalınızı ölkədə və xaricdə Azərbaycan layihələrinin icrasına yatırın. Tam əminliklə demək olar ki, bu prosesin stimullaşdırılması Azərbaycan iqtisadiyyatının, eyni zamanda, dövlətlərarası iqtisadi əlaqələrin inkişafında yeni bir mərhələnin başlanması deməkdir. Bu yeni nəsil demokratik dünya dövlətlərinin üstünlük verdiyi faydalı prosesdir ki, Azərbaycan da onun ön sıralarında olmaq imkanındadır.

Beynəlxalq siyasi, mədəni, intellektual həyatın dinamik inkişafında dünya azərbaycanlılarının öz yeri, rolu və məsuliyyət payı vardır. Azərbaycan Respublikası inkişaf etdikcə, onun başlıca olaraq bir suveren dövlət statusunda, həm də buna dəstək kimi güclü və vətənpərvər diasporu vasitəsilə beynəlxalq siyasətə təsir imkanları artdıqca, özünün qüdrətli milli dövlətinə – müstəqil və qüdrətli Azərbaycana arxalanan dünya azərbaycanlılarının da milli, regional və qlobal səviyyədə manevr və fəaliyyət imkanları yüksəlir. İndi təkcə azərbaycanlılar deyil, onların vasitəsilə ölkəmiz haqqında dürüst məlumat qazanan digər millətlərin nümayəndələri, dövlətlərdə və beynəlxalq təşkilatlarda müəyyən məsul vəzifələri icra edən şəxslər də Azərbaycanın milli maraqlarının müdafiəsində lazımi mövqeyi sərgiləyirlər. Bu istiqamətdə Azərbaycanın xeyirinə lobbiçilik hərəkatını bundan sonra daha da fəallaşdırmaq və genişləndirmək xüsusi əhəmiyyət kəsb edir.

Son 15 ildə dünyanın kütləvi informasiya vasitələrində Azərbaycan haqqında informasiyanın keyfiyyəti, həcmi, intensivliyi və miqyası dəfələrlə artmışdır. Azərbaycan indi planetin aparıcı mediasında diqqət mərkəzindədir. Onun tarixi və müasir nailiyyətləri publisistik araşdırmalardan elmi tədqiqatlaradək çox geniş miqyasda öyrənilərək, beynəlxalq arenada dəyər qazanır. Son illərdə buraxılan diaspor nəşrləri, müxtəlif çap və video materialları, xarici ölkələrdən yayımlanan veb-saytları və s. Azərbaycanı bütün dolğunluğu ilə qlobal informasiya məkanında təqdim etməyə zəmin yaradan böyük uğurlardır.

Həmvətənlərimiz beynəlxalq siyasətdə, qlobal iqtisadi məkanda ildən-ilə daha öncül yer alan Azərbaycan Respublikasının nailiyyətlərindən fərəhlənərək, onun tərəqqisi naminə daha sıx birləşmək, güclənmək, fəaliyyətlərini ən zəruri və məqsədəyönlü istiqamətlərdə qurmaq və irəlilətmək üçün bu gün real tarixi şans əldə etmişlər. Bu imkanlardan yararlanmaqla, onlar qarşıdakı illərdə doğma vətən torpağına ayaq basanda, daha qüdrətli Azərbaycanla nəfəsnəfəsə dayanacaq, qurur duyacaq, "Bu inkişafda, çiçəklənmədə mənim də payım var!" - deyə biləcəklər.

1993-cü ildən başlanmış dövlət quruculuğu strategiyası keçən illər ərzində davamlı şəkildə inkişaf etdirilmiş və bu gün də qlobal siyasətin çağırışlarına müvafiq şəkildə təkmilləşmə yolunu keçməkdədir. Həyatımızın uğurlarla zəngin daha bir ilini yüksək əhval-ruhiyyədə sevinc və fərəh hissləri ilə başa vururuq. Bu il ərzində ölkəmizin iqtisadi-siyasi və sosial-mədəni inkişafı istiqamətində başladılmış islahatları qarşıdan gələn illərdə daha böyük uğurların başlanğıcı hesab etmək olar.

Beynəlxalq aləmdə təqvim bayramı kimi qeyd edilən Yeni ili müstəqillik epoxasında həm də milli bayrama çevirmiş Dünya Azərbaycanlılarının Həmrəylik Günü yenidən bizi vahid bir süfrə arxasına toplayıb. Hamımız üçün əziz və yüksək ictimai məna daşıyan bu iki bayramın müştərək məramı daha xoş günlər diləyi ilə yaşamağımızdır. Arzu-istəklərimizi yenidən nəhəng bir məcrada bir-birinə qovuşduran bu ikiqat bayram günlərində bütün soydaşlarımızı ürəkdən təbrik edir, 50 milyonluq xalqımıza tərəqqi, səadət diləyirəm. Bütün həmvətənlərimizin ortaq istəyinə qoşularaq, dünya azərbaycanlılarının yeganə milli dövləti olan Azərbaycan Respublikasına 2019-cu ildə hərtərəfli çiçəklənmə yolunda daha böyük uğurlar arzulayıram.

Cavanşir FEYZİYEV,
Milli Məclisin deputatı,
fəlsəfə doktoru

Regional təhlükəsizliyə mühüm töhfə

❒ ***2018-ci il dünyadakı siyasi proseslər baxımından, demək olar ki, bütün bölgələr üçün həyəcanlı keçdi. Bu da obyektiv səbəblərdən qaynaqlanır: Rusiya–ABŞ münasibətlərinin pik həddədək pisləşməsi, Suriyada davam edən münaqişə, Ukraynada və ümumiyyətlə bütün Avropada gedən proseslərdə Vaşinqton və Moskvanın maraqlarının toqquşması, Çin və ABŞ arasında soyuq iqtisadi müharibə, Trampın İranla bağlı sanksiyalara start verməsi, qardaş Türkiyənin milli maraqları uğrunda apardığı mübarizə və s. Bununla yanaşı, Avropa İttifaqının (Aİ) aparıcı dövləti Fransada "sarı jiletlilər" aksiyası bir daha sübut etdi ki, Paris kimi zəif olmayan beynəlxalq aktorlar belə xarici və daxili siyasi davranışlarını yüz ölçüb, bir biçməlidirlər.***

Sevindirici haldır ki, 2018- ci il coğrafi cəhətdən kiçik dövlət olan Azərbaycanımız üçün kifayət qədər uğurlu keçmişdir. Təbii ki, 2018-ci il haqqında danışarkən ilk növbədə ölkədə həyata keçirilən prezident seçkilərini qeyd etmək vacibdir. Çünki dövlətin uğuru onun başında duran şəxsdən asılıdır. Sevindirici haldır kı, prezident seçkilərində xalqımız düzgün seçim edərək sabitlik yolunu tutdu. Bəlkə kimlər üçünsə təhlükəsizlik və sabitlik problemi adi məsələlər kimi gəlir. Lakin, regionda təhlükəli proseslərin getməsinə, beynəlxalq vəziyyətin daha da gərginləşməsinə baxmayaraq, ölkəmizdə sabitliyin, təhlükəsizliyin təmin edilməsi heç də asan iş deyil.

Bu il ölkəmiz regional və beynəlxalq layihələrin aparıcı aktoru kimi onların reallaşmasını bacara bildi. Heç kimə sirr deyil ki, dünyanın hansı regionu olmasına baxmayaraq, istənilən ölkə üçün regional və beynəlxalq miqyasda layihələrin həyata keçirilməsi müşkül məsələdir. Xüsusən də söhbət kiçik dövlətlərdən gedirsə. Düşünürəm, regional layihələrin reallaşmasında qlobal oyunçuların və ayrı-ayrı maraq lobbilərinin apardıqları təsir, təzyiq və maneə imkanlarını xüsusilə vurğulamaq lazımdır. Heç də asan olmayan bu yolda TANAP, Bakı–Tbilisi–Qars, Cənub–Şimal və bir çox digər regional layihələrin reallaşması birbaşa olaraq rəsmi Bakının apardığı düzgün siyasətin nəticəsidir.

Azərbaycanın yerləşdiyi coğrafi mövqeyə nəzər salsaq bölgədə Rusiya, ABŞ, Türkiyə, İran, İsrail, Çin, Səudiyyə Ərəbistanı kimi mühüm oyunçuların varlığının şahidi oluruq. Bu istiqamətdə Rusiyanın bölgənin əsas söz sahibi olan dövlətlərindən biri olması heç kimdə sual doğurmur. ABŞ-ın birqütblü idarəçilik sistemi yaratmasına imkan vermək istəməyən Kremlin dünyanın ayrı – ayrı bölgələrində Vaşinqtona qarşı göstərdiyi direniş göz qabağındadır. Sovetlərin dağılmasından sonra Rusiyada Qərbə inteqrasiya yolunu seçənlərin hakimiyyətə gəlməsindən sonra bir çoxları "soyuq müharibə"nin artıq arxada qaldığını və dünyada birqütblü hökmranlığın başlandığı fikrində idilər. Balkanlarda Qərb koalisiyasının qələbəsi, Aİ və NATO-nun əminliklə Şərqə doğru irəliləməsi Rusiya qarşısında sual yaradırdı. Ölkə ya Almaniya və Fransa kimi regional güc rolunu oynayacaq, ya da dünyaya ağalıq etmək uğrunda ABŞ ilə mübarizə aparacaq. Proseslər onu göstərdi ki, tədricən Rusiyanı dirçəldən V.Putin ikinci yolu seçdi.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Moskvanın təsir imkanlarını da nəzərə alsaq, bizə qonşu olan bu dövlət ilə Azərbaycan arasında olan münasibətlər xüsusilə prioritet istiqamət daşıyır. 2018-ci ili Bakı və Moskva arasında olan münasibətlərdə yüksəliş dövrü kimi qiymətləndirmək olar. Müstəqillik dövründən sonra tarixdə heç zaman ölkələr arasında bu qədər isti münasibətlərin olması müşahidə edilməmişdir. Azərbaycan – Rusiya münasibətlərinin istiləşməsi birbaşa olaraq Dağlıq Qarabağdakı proseslərə də təsir edən ən mühüm faktorlardan biridir. Təsadüfi deyil ki, hələ Ermənistanda inqilab olmamışdan əvvəl Moskva və Yerevan arasında olan münasibətlərdəki gərginlik müşahidə olunmaqda idi. Bu gərginlik birbaşa olaraq ətraf rayonlarla bağlı mövzu idi. Düşmən ölkədə hakimiyyət dəyişikliyi Moskva və Yerevan arasında yeni problemlər yaradaraq, Cənubi Qafqazın prioritet dövləti kimi Bakının statusunu daha da qaldırmış oldu.

Bu il ərzində siyasi, iqtisadi, mədəni, humanitar və digər ikitərəfli münasibətlərdə bir çox tədbirlərin keçirilməsi bütün istiqamətlərdə münasibətlərin dərinləşməsinin göstəricisidir. Təbii ki, bütün bunlar ölkə liderləri arasında olan dostluq və mehribanlıq əlaqələri ilə bağlıdır. Prezident İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfəri zamanı 16 sənədin imzalanması, cəmi bir neçə həftə sonra Rusiya dövlət başçısının ölkəmizə səfəri təsadüfi hesab edilə bilməz.

Təkcə mərkəzlər arasında deyil, eyni zamanda, Rusiyanın ayrı-ayrı bölgələri ilə Azərbaycan arasında siyasi, humanitar, mədəni və iqtisadi münasibətlər güclənməkdədir. Buna misal olaraq Moskva, Sankt - Peterburq şəhərləri, Həştərxan, Nijni-Novqorod, Çelyabinsk, Volqoqrad, Saratov, Sverdlovsk vilayətləri, Krasnodar və Stavropol diyarları ilə Azərbaycan arasındakı münasibətləri göstərmək olar. Rusiyanın bir çox subyektlərində Azərbaycan ticarət evlərinin açılması təkcə tərəflər arasındakı iqtisadi dövriyyənin çoxalmasına deyil, həm də siyasi cəhətdən yerlərdəki elitaların yaxınlaşmasına gətirib çıxarmışdır.

Sentyabrın 27-də Bakıda keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumu zamanı hər iki dövlət başçısının Heydər Əliyev Mərkəzinə gələrək, forumun iştirakçılarını salamlamaları buna verilən yüksək qiymətin göstəricisi idi.

İqtisadi münasibətlərə nəzər saldıqda görürük ki, Azərbaycanın ticarət dövriyyəsində Rusiya qeyri-neft sektorunda həm ixrac, həm də idxalda ilk yerdədir. Neft – qaz və energetika sektorunda SOCAR və Rosneft arasında münasibətlər yüksək səviyyədədir. Lukoil isə 20 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərərək mühüm investorlardan birinə çevrilmişdir.

İki ölkə arasında 2018-ci il ərzində baş tutan mühüm istiqamətlərdən biri də Şimal – Cənub nəqliyyat dəhlizidir. Nəqliyyat sahəsində Şimal–Cənub dəhlizi vasitəsilə bu il ərzində 100 dəfədən çox artım müşahidə olunmuşdur. Digər dövlətlərin deyil, məhz Azərbaycanın Hind okeanından Şimal buzlu okeana qədər olan nəqliyyatda vacib yer tutması Bakının proseslərdən çevik şəkildə istifadə etməsi nəticəsində baş verdi.

Oktyabrın 15-də VI Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi yenə də bizim adımıza yazılacaq mühüm dividentdir. Bu forum artıq qlobal status alaraq mədəniyyətlər və sivilizasiyalararası dialoqda mühüm yer tutur.

2019-cu il ikitərəfli münasibətlərdə həyata keçirilən uğurlu siyasətin davamlı olması baxımından da çox vacibdir. Etiraf etmək lazımdır ki, ikitərəfli münasibətlərdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi az rol oynamır. Rusiyadakı erməni diasporu tərəfindən maliyyələşən müxtəlif qrupların ikitərəfli münasibətlərə xələl gətirməsi üçün apardıqları siyasət də göz qabağındadır. Görünən odur ki, Moskva regionda əsl dostunun və düşmənin kim olduğunu yaxşı başa düşərək geostrateji vurğuda bir sıra dəyişikliklər etməyə başlamışdır və bu, qonşu ölkədəki müəyyən qüvvələri narahat etməkdədir.

Zaur MƏMMƏDOV,
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, politoloq

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində səfərdə olub

❒ ***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhənin Füzuli istiqamətində yerləşən hərbi hissələrdə olub və şəxsi heyətlə görüşüb.***

Müdafiə Nazirliyindən aldığımız məlumatda bildirilir ki, nazirliyin rəhbər heyəti aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.

Cocuq Mərcanlı kənd məktəbində müəllim və şagirdlərlə görüşən müdafiə naziri, general-polkovnik Zakir Həsənov onları qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək, məktəblilərə bayram hədiyyələri təqdim edib.

Ön xətdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komandamüşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Çay süfrəsi arxasında əsgərlərlə söhbət etdikdən sonra müdafiə naziri ön xətdə xidmət edən şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı görülən işlərlə maraqlanıb və müvafiq tapşırıqlar verib.

Bayram münasibətilə şəxsi heyətə təbriklərini və ən xoş arzularını çatdıran general-polkovnik Z.Həsənov xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandıraraq, onlara qiymətli hədiyyələr təqdim edib.

Sonra müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hospitalda müalicə alan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb. Nazir hərbi qulluqçulara bayram sovqatları təqdim edib, onların tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

"Xalq qəzeti"

Azərbaycan güvənc yerimizdir

❒ ***Tale elə gətirib ki, Aşqabadda doğulub böyümüşəm. Bu şəhərdə təhsil almışam, ailə qurmuşam, övlad, nəvə-nəticə yiyəsi olmuşam. Amma Bakını hər zaman güvəndiyim, arxa-dayaq sandığım Vətən bilmişəm. Azərbaycanın uğurları ilə fərəhlənmişəm, qürur duymuşam, çətin, ağır günlərində soydaşlarımın yanına can atıb, onların dərdlərinə şərik olmağa çalışmışam...***

Böyük şəxsiyyət Heydər Əliyevi hər zaman minnətdarlıqla xatırlayıram. Ulu öndərin sağlığında öz xalqının, ölkəsinin inkişafı ilə bərabər, obyektiv səbəblərdən bütün dünyaya səpələnmiş soydaşlarımızın ümummilli məqsədlər ətrafında birləşməsinə çalışdığını yaxşı bilirəm. Yeri gəlmişkən, bununla bağlı bu dahi insanın 1997- ci ildə ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısındakı çıxışını yada salmaq istəyirəm. Heydər Əliyev üzünü soydaşlarımıza tutub deyirdi ki, siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəlidə gedər, Azərbaycan diasporu da inkişaf edər...

Etiraf edim ki, ulu öndərin həmin mərasimdə bildirdiyi bir fikir yaşadığım şəhərdəki azərbaycanlıları sanki yuxudan ayıltdı: "Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Nə olsun? Məgər Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir, mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Bəli, o zaman ulu öndərin bu haqlı məzəmməti təkcə amerikalı soydaşlarımızda deyil, Aşqabad şəhərində yaşayan azərbaycanlılarda da Vətən sevgisini artırdı, Azərbaycana bağlılığı daha da gücləndirdi...

Türkmənistanın paytaxtında azərbaycanlılar çoxdur. Əziz günlərdə, eləcə də 20 Yanvar, Xocalı faciələri ilə bağlı mərasimlərdə bir araya gəlirik. Hər il 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramını böyük coşğu ilə keçirirk. Novruzu xalqımızın əlamətdar bayramı kimi qeyd edirik, uzun illərdən bəri yaranan, qorunub saxlanılan ənənələrimizi, zəngin mədəniyyətimizi, tarixi kökümüzlə bağlı hadisələri unutmuruq.

Yeri gəlmişkən, bir fikrimi də oxucularla bölüşməyi vacib bilirəm. Qürbətdəki soydaşlarımızda Vətən eşqini, milli-mənəvi birlik hissini təlqin edən, bizə güclü dəstək verən, arxa-dayağımıza çevrilən, bütün türk dünyasının bir hissəsi olaraq, etdiyi ümummilli lider Heydər Əliyevin xatirəsini daim ehtiramla anırıq. Bu tarixi şəxsiyyət təkcə Azərbaycana yox, bütün türk dünyasına, dünya azərbaycanlılarına verilən Tanrı payı idi. Ona görə də keçirilən bütün bayramlarda ulu öndər Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirmək məharətini qədirbilənliklə yad edirik.

Bu gün Azərbaycanın hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin qəlbində böyük qürur və iftixar hissi doğurur. Müstəqil Azərbaycan dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımızın doğma Vətənidir.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin noyabr ayında Türkmənistana gəlmişdi. Burada cənab İlham Əliyevin Türkmənistanın dövlət başçısı ilə görüşündə etdiyi nitqdən də aydın oldu ki, Azərbaycan sosial-iqtisadi inkişaf yolu ilə uğurla irəliləyir, respublikanın beynəlxalq əlaqələri genişlənilir, xarici siyasətdə mühüm nailiyyətlər qazanılır.

Biz yaxşı bilirik ki, ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi önəm verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər.

Ağabala MİRZƏYEV,
Türkmənistan Respublikası,
Aşqabad şəhəri

Ödəmə təminatı gələn il yekunlaşacaq

❒ ***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 19 aprel tarixli fərmanı mühüm sosial əhəmiyyət kəsb edən sənəd olmaqla, ölkəmizdə şəhid ailələrinin rifah halının yaxşılaşdırılmasında daha bir mühüm bir addımın atılmasına səbəb olub.***

Şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatını nəzərdə tutan Fərmanın icrası olaraq, müvafiq işlər davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, artıq 3097 şəhidin 4190 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi barədə qərar qəbul olunub və onların hər birinin bank hesabına müvafiq vəsaitin köçürülməsi təmin edilib.

Ümumilikdə 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub.

Eyni zamanda, dövlət başçısının qeyd olunan fərmanının icrası işləri şəffaf, həmçinin vərəsələr üçün rahat müraciət prosedurunu nəzərdə tutan mexanizm üzərində qurulub. Vərəsələr yalnız notariat kontorlarına müraciət edir, aidiyyəti sənədləri təqdim edərək vərəsəlik şəhadətnaməsi alır. Bundan sonra notariat kontorları tərəfindən müvafiq sənədlər elektron şəkildə nazirliyin informasiya sisteminə ötürülür. Növbəlilik qaydasında sənədlərə baxılaraq qərar qəbul olunur, daha sonda ödəniş vərəsənin bank hesabına köçürülür. Bu barədə ona sms vasitəsilə bildiriş göndərilir.

Şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı 2019-cu il ərzində yekunlaşacaq.

Aztəminatlı ailələrə birdəfəlik yardımların ödənişi təmin olunub

❒ ***Ünvanlı dövlət sosial yardım alanlara birdəfəlik ödəmələrin verilməsi prosesi yekunlaşıb. Azərbaycan Prezidenti İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" 19 dekabr 2018-ci il tarixli sərəncamı tam olaraq icra edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 (yüz) manat məbləğində birdəfəlik yardımın ödənilməsini başa çatdırıb.***

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, birdəfəlik yardım aztəminatlı ailələrin bayram ərəfəsi maddi təminatlarına dəstək məqsədilə, artıq onların bank hesablarına köçürülüb.

Qeyd edək ki, dövlət başçısının imzaladığı sərəncam ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə birdəfəlik yardım ödənilməsini nəzərdə tutmaqla, həmin ailələrə növbəti qayğıdır. Sərəncama əsasən, bu məqsədlə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsindən 5 milyon manat ayrılıb.

Z.BƏŞİRQIZI, "Xalq qəzeti"

Türkiyə tankları Suriya ilə sərhəddə

❒ ***Türkiyə Suriya ilə sərhəddə yerləşən Şanlıurfa vilayətinə tanklar göndərib.***

Trend-in məlumatına görə, bölgəyə 50 tank yeridilib.

Qeyd edək ki, bir müddət əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyanın Münbic şəhərində əməliyyatların başlayacağını bildirmişdi.

ABŞ qoşunlarının Suriyadan çıxması qərarı ilə əlaqədar əməliyyatın başlaması bir müddət təxirə salınmışdı.

YENİ İLƏ GÜLƏ-GÜLƏ

Xeyrəddin Qoca

ŞİRİNLİK

Neçə vaxt idi ki, oğul həsrətində idim. Arvadın da ki, vaxtı çatmışdı. Apardım doğum evinə. Əhvalat da elə bundan sonra başlandı. Uzun sözün qısası, birdən beş nəfər xidmətçi mənə xəbər verdi ki, "muştuluğumuzu ver, oğlun olub". Sevindiyimdən əlimi cibimə salıb nə qədər pulum vardısa verdim onlara.

Doğum evinin bayır qapısındakı daxili telefonu götürüb arvadıma zəng vurdum ki, təbrik eləyim. Arvadım xəttin o başından cavab verdi:

– A kişi, arzun yerinə yetdi. İndi də sən mənim istəklərimə əməl et.

– Buyur, arvad! De görüm, nə istəyirsən?

– Hələlik heç nə. Bir az "şirinlik" lazımdır.

– Nə lazımdır, de, gedim, bazardan alım, gətirim...

– Bazarlıq məsələsi deyil, ay kişi! Burada mamaçalar mənə gözaydınlığı verirlər, "şirinlik" onlara lazımdır.

Nə edəydim?! Tez evə qaçıb "şirinliyi" gətirdim.

Səhəri gün doğum evinə yenə zəng vurdum ki, hal-əhval tutum. Arvad dəstəyi götürən kimi qışqırdı:

– Haradasan?

– Nə olub, ay qız?

– Nə olacaq?! Mənə dedilər, "gəl, uşağı göstərək", mən də getdim.

Dayələrdən biri uşaq yatan otağın qapısını Ərəbzəngi kimi kəsdirib "şirinliyini ver, sonra keç" dedi. Cibimdə bir şey olmadığından, uşağımı görə bilmədim. Tez bir əlac qıl, gedim, görüm, balam necədir?

Bunun da "əlacını qıldım".

Üçüncü gün arvad zəng vuranda, yenə ağzı açıldı:

– Uşaq acından ölür! Əmizdirməyə qoymurlar ki, "haqqı var"...

Dördüncü gün bildirdi ki, bəs, uşağın göbəyi düşüb, bu münasibətlə "şirinlik" verməliyik...

Beşinci gün uşağı aparıb-gətirən üçün "şirinlik" istədi.

– Yenə də "şirinlik", ay arvad? – hirslə soruşdum.

Arvad da hirslə cavab verdi:

– Əcəb adamsan! Bilmirsən ki, uşağı bələyənə, bizi qapıya qədər ötürənə, ən nəhayət, həkimə bir şey lazımdır?

Bəli, bilmirdim, onu da bildim.

Xülasə, hamını razı saldım. Arvad uşaq qucağında bayıra çıxanda dərindən nəfəs aldım. Taksi tutub evə gəldik. Sayğac beş manat yazmışdı. Əlimi cibimə salanda sürücü dilləndi:

– On beş manat!

– Nə???

– Özünü bilməməzliyə vurma, qardaşoğlu! Yəni, deyirsən, bu boyda sevincdən (o uşağa işarə etdi) mənə pay düşmür?

Mətləbi başa düşüb sürücünü də razı saldım.

Qohum-qonşular gəldilər "uşaqgördüsünə". "Gətir-götür" başlandı. Sonra da uşağa "adqoydu" oldu. Məşədi İbad demişkən, "a kişilər, vallahi mən söküldüm, mən dağıldım!.." Hələ harasıdır? Amma gərək dözək, borcumuzdur!

Sağ əlim başınıza!

TOY NƏ ÜÇÜNDÜR?

Əziz dostum Qurbanqulu, sənə neçə dəfə demişəm, ağlına gələni danışma! A kişi, danışma də! Mən ölüm, danışma! Sən o balalarının canı, danışma! Sən son zamanlar sözə baxmayan olmusan, camaata ağıl öyrədirsən. Elə bilirsən, camaat öz xeyrini, şərini səndən pis bilir?

O nə hərəkətdir, hörmətli, alicənab, möhtərəm bir kişinin toyunda durub mikrofonu almısan əlinə, başlamısan camaata moizə oxumağa ki, bəs, gəlin, toylarımızda araq-çaxır içib keflənməyək, nə bilim, adam kimi musiqiyə qulaq asaq, qabqacaq sındırmayaq, qışqırıb-bağırmayaq...

Ay Qurbanqulu, indi nəsihət vaxtıdır camaata verirsən? Bəs, toy nə üçündür, hə? Toyda içərlər də, keflənərlər də. Qonaqlar zəhmət çəkib filan qədər pul salırlar, əvəzində o ki var, yeyib-içməlidirlər, yoxsa yox? Yeri gələndə boşqab da sındırmaq olar, qışqırıb-bağırmaq da, hələ o tərəfə keçmək də! Toya kef eləməyə gələrlər də... Qaldı musiqiyə qulaq asmaq məsələsinə, Azərbaycan musiqisi oldu, "moltanı" musiqisi oldu, fərqi yoxdur. Təki mikrofondan səs gəlsin.

Doğrusu, səndən heç gözləməzdim, Qurbanqulu! Yaxşı, içmə, keflənmə, qabqaşıq sındırma, oynayıb köynək-köynək tər tökmə, daha o nə toy oldu, hə?

Qurbanqulu, özün bilirsən, toya cürbəcür adamlar gəlir. Onların içərisində pullu, vəzifəli, ağıllı-kamallı adamlar da olur. Belə isə niyə ortalığa düşüb camaatı özünə güldürürsən? Adam var bütün günü özünü ac saxlayır ki, axşam gedib toyda o ki var, yesin-içsin. Sənin qəsdin nədir, istəyirsən toylarımızda qayda-qanun yaradasan? Ay yaratdın ha! Bir toyda ki, vur-çatlasın, dava-dalaş olmadı, şabaş tökülmədi, daha o nə toy oldu?

Deyirsən ki, muğamatın şirin yerində

biri gəlir musiqiçilərin qabağına göy kağızdan bir "yüzlük" atır ki, "ala, bir "Tormoz Hüseyn" çal, oynamaq istəyirəm". İndi deyirsən, çalğıçılar muğamatı yarımçıq kəsib "Tormoz Hüseyn" çalmasınlar? Bir başqası "yüzlük" atıb deyəcək ki, "ala, bir "Bakılı balasıyam" oxu". Müğənni də başlayacaq ki, "Bakılı balasıyam, Bakıda qalasıyam". Guya, bunu Bakıdan qovan var! Adama deyərlər, nə qədər istəyirsən Bakıda qal da, bə. Gərək toyxanada belə şeylər də çalıb-oxusunlar, axı! Ağzında "toy" deyirsən, zalım oğlu, zalım! Bəs, çalğıçılar pul qazanmasınlar? İstəyərlər "Hopstop" çalarlar, istəyərlər "Çal, oynasın Əjdər əmi!" Sən belə şeylərə qarışma, adın– sanın var, ayıbdır!

Sənin sözlərindən biri bu olub ki, toylarda pul yığılmasın. A kişi, dəli olmusan? Nə ixtiyarın var ki, xalqın adətlərinə qarşı çıxırsan? Toy sahibi bir ətək pul töküb məclis düzəldir ki, camaata havayı yemək-içmək versin? Kişi gərək verdiyini də çıxarsın, hələ qazanc da götürsün. Sənə nə var? Mərdiməzarlıq sənə qalıb?

Qurbanqulu, bir də belə işlər görsən, səninlə dostluğumuz tutmayacaq. A kişi, yerini bil, ağır otur, batman gəl! Gedib toyda-mağarda ağzına gələni danışma!

SAAT GERİ QALIRDI...

Lap məəttəl qalmışdım. Son zamanlar qol saatım geri qalırdı. Yəqin deyəcəksiniz ki, burada məəttəl qalmalı nə var ki? Apar ustaya, təmir eləsin, vəssalam. Kaş, siz fikirləşdiyiniz kimi olaydı... Amma məsələnin məğzi tamam başqadır.

Əvvəllər saatım köhnə idi. Bir-iki dəfə də usta əli dəymişdi. Bir sözlə, gözümdən düşmüşdü. Gedib təzəsini aldım. Özü də xarici firmanın buraxdığı saatların ən yaxşısını seçdim. Hər gün də radio ilə yoxladım. Gördüm yox, saatın dəqiq işləməsinə söz ola bilməz.

Xeyli keçdi. Bu saat da geri qalmağa başladı. Bəzən elə olurdu ki, axşam saatı düzəldirdim, səhər yenə on-on beş dəqiqə, bəzən yarım saat "axsayırdı". Ustaya aparırdım, yoxlayırdı, "yox, bu saatlar geri qala bilməz" deyirdi. Xülasə, bu məsələdən baş açа bilmirdim ki, bilmirdim.

Hər səhər təzə kostyumumu, ayaqqabımı geyinib işə gedirdim. Əvvəlcə, evdəki güzgünün qabağında saçımı darayır, qalstukumu səliqə ilə bağlayırdım. Arvadım da hər dəfə yola düşəndə istehza ilə soruşurdu:

– Yenə nə bəzənib-düzənirsən?

Çox vaxt mən onun bu sualına fikir vermirdim, çünki səliqəli geyinmək mənim adətim idi. Bəzən də zarafatla cavab verirdim:

– Bu gün görüşüm var...

Heç demə, arvad elə bundan şübhələnirmiş...

Bir dəfə yenə güzgünün qabağında "bəzənib-düzənirdim". Güzgüdən o biri otaq aydın görünürdü. Qalstukumu təzəcə bağlamışdım ki, gördüm arvad masanın üstündən saatı götürüb "əlləşdirdi". Özümü görməməzliyə vurdum. Evdən çıxanda saatı götürdüm ki, qoluma bağlayım. Divar saatı ilə yoxlayanda gördüm ki, qol saatım düz otuz dəqiqə "geri qalıb"...

Onda başa düşdüm ki, məsələ nə yerdədir. Heç demə, arvad qol saatımın əqrəblərini geri çəkirmiş ki, mən "görüşlərə" gecikim...

Bu da qısqanclığın təzə hoqqası!..

KİBRİT RƏHİM

Ona "Kibrit Rəhim" deyirlər. Yəqin fikirləşirsiniz ki, Rəhim bu adı necə qazanmışdır, eləmi?

O, baş idarədə çoxdan işləyirdi. İşlədiyi müddətdə neçə dəfə idarənin rəisi dəyişilib. Onların yaxşısını da görüb, pisini də. Hər rəis gələndə idarənin neçə işçisi işdən çıxarılıb, neçəsi də ərizə yazıb "öz xahişi ilə" getmişdi. Amma indiyədək rəislərdən heç biri Rəhimə gözün üstə qaşın var deməmişdi.

Bəli, Rəhimin oturduğu otaq siqaret çəkmək üçün ayrılan yerin yanında olduğundan rəislər də hərdən siqaret çəkmək üçün həmin yerə gəlirdilər. Rəhim qapını azca aralı qoyurdu ki, ora gələnləri gözaltı da olsa nəzərdən keçirsin. Elə ki, rəis gəlib cibindən bir siqaret çıxartdı, Rəhim tez kibritini götürüb ona yaxınlaşırdı. Rəisin siqaretini bir andaca yandırırdı. Rəis də gülümsəyib razılıq əlaməti olaraq başını tərpədirdi. Beləliklə, Rəhimin hörmətcilliyi rəislərə çox xoş gəlirdi, xətrinə dəymirdilər.

İdarəyə təzə rəis gəlmişdi. Xeyli müddət keçsə də, təzə rəis siqaret çəkilən yerdə görünmürdü. "Deməli, təzə rəis siqareti kabinetində çəkir" fikri Rəhimə rahatlıq vermirdi.

Bir dəfə rəis ona iş tapşırmaq üçün yanına çağırdı. O Rəhimə oturmaq təklif etmədən, bir siqaret çıxarıb damağına qoydu. Rəhim himə bənd imiş kimi tez kibriti çıxarıb yandırdı, əlini rəisin siqaretinə tərəf uzatdı. Elə bu vaxt rəisin dik ayağa qalxması ilə qışqırmağı bir oldu:

– A kişi, sən neynədin?!

Rəis yanmış bığını sığallayıb qəzəblə Rəhimə baxdı. Rəhim də çaşdığından yanan kibrit çöpünü zibil qabına atmaq əvəzinə qutusuna qoydu. O dəqiqə əlindəki kibrit qutusu alovlandı. Kibrit də yandı, əli də. Elə həmin an Rəhimin yadına düşdü ki, indiyədək siqaretlərini yandırdığı rəislərin axı, bığı yox idi.

Elə o vaxtdan onun adı "Kibrit Rəhim" qalıb...

REKLAM

Başınız sağ olsun, qalanlara Allah ömür versin, bir nəfər ölür, gedir o dünyaya. Uzaqdan musiqi, çal-çağır səsi eşidilir. Yaxınlaşır, görür burada kefdir. Musiqi bir tərəfdə, huri-qılmanlar bir tərəfdə, yemək-içmək bir tərəfdə. Quşlar cəh-cəh vurur. Gül bülbülü çağırır, bülbül də gülü. Xülasə, adam baxanda hayıl-mayıl olur. Soruşur ki, bura haradır, deyirlər cəhənnəmdir. Ömrünü bizlərə bağışlayıb gedən də fikirləşir ki, bu dünyada çox fırıldaq işlər görüb, onsuz da cənnətə gedə bilməyəcək, elə cəhənnəm də pis deyil. Odur ki, dillənir:

– Məni göndərin cəhənnəmə.

Arxasından bir təpik vurub atırlar cəhənnəmə. Görür paho, burada nə musiqi var, nə huri-qılmanlar, nə yemək-içmək, nə də quşların cəh-cəhi. Baxır ki, bədheybət inkir-minkirlər mizan-tərəzi qurublar, özlərinin də əllərində yekə-yekə toppuzlar kəsdiriblər bunun başının üstünü, haqq-hesab soruşurlar. Yalan danışsa, toppuzlar dəyəcək başına. Qorxa-qorxa heyvərə bir inkür-minkirdən soruşur:

– Bəs bura cəhənnəm deyil?

İnkir-minkir cavab verir:

– Özüdür ki, var!

Rəhmətlik soruşur ki, bəs haradadır o gördüyüm kef, huri-qılmanlar?..

İnkir-minkir daha qoymur kişi sözünü bitirsin, toppuzu təpəsinə ilişdirib, cavab verir:

– Ay bədbəxt, sənin gördüklərin reklam idi...

"Dünya soyqırımları tarixi"



❒ ***"Xalq qəzeti"nin əməkdaşı, araşdırmaçı-jurnalist, "Soyqırımı Həqiqətlərinin Tanıdılması" İctimai Birliyinin sədr müavini, AMEA-nın dissertantı Anar Turanın bu günlərdə nəşr olunmuş "Dünya soyqırımları tarixi" adlı kitabı orta əsrlərdən bugünümüzə qədər bəşəriyyətə qarşı törədilmiş soyqırımı aktlarından bəhs edir. Faktlarla zəngin olan dəyərli əsər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Soyqırımı Həqiqətlərinin Tanıdılması" İctimai Birliyinin ilk layihəsi çərçivəsində nəşr edilib.***

Azərbaycan və ingilis dillərində nəşr olunmuş kitabda tariximizin XX əsrdə ən keşməkeşli dövrlərinin acı nəticələri – 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, 1992-ci ildə bəşəriyyətin gözü qarşısında baş vermiş dəhşətli Xocalı soyqırımı dünyanın müxtəlif xalqlarına qarşı – Srebrenitsa, Ruanda, Namibiya, Kamboca, Oradur, Tasmaniya, Amerika dəhşətləri ilə paralel şəkildə işıqlandırılıb. Müəllifin faktoloji cəhətdən zənginliyi ilə seçilən bu monoqrafiyası ingilis, fransız, rus, türk mənbələrinə istinadən hazırlanıb. T.Snayder, A.Cons, D.Stennard, M.Hassan Kakar, T.Rassel və digər tanınmış əcnəbi tarixçi-alimlərin dünyada törədilən soyqırımlarına münasibətlərinin, araşdırmalarının tədqiqata cəlb olunması kitabın dəyərini daha da artırıb.

Kitabın üstünlüklərindən biri odur ki, ilk dəfə olaraq dünya soyqırımlarına kompleks şəkildə toxunulub. Digər üstünlüyü isə ingilis dilinə tərcümə olunmasıdır. İngilisdilli versiya, əsasən, xarici ölkələrdəki diaspor təşkilatları, diplomatik nümayəndəliklər, beynəlxalq təşkilatlar və xarici ölkələrdəki nüfuzlu universitetlərin kitabxanaları üçün nəzərdə tutulub. Kitabı ingilis dilinə tanınmış tərcüməçi Ceyhun Bayramlı çevirib.

"Dünya soyqırımları tarixi" kitabına ölkəmizin tanınmış tarixçilərinin – tarix üzrə elmlər doktorları, professorlar Anar İsgəndərov, Qafar Cəbiyev və Kamil İbrahimovun müsbət rəy vermələri həm mövzunun aktuallığından, həm də müasir dövr üçün zəruri olmasından xəbər verir. İsrailin aparıcı qəzetlərindən olan "The Jerusalim-Post"un beynəlxalq məsələlər üzrə eksperti Arye Qutun da fikirləri diqqəti cəlb edir: "Orta əsrlərdən günümüzədək baş verən soyqırımı aktlarına lakonik, həm də ətraflı işıq tutan araşdırmaçı, jurnalist Anar Turanın bu dəyərli əsəri bəşəriyyətə qarşı törədilmiş dəhşətli cinayətlər barədə ensiklopedik bilgi verir. Bu kitab vasitəsilə, həmçinin Holokost, Xocalı, Oradur, Ruanda, Srebrenitsa, Myanma və digər dəhşətli faciələr barədə kifayət qədər sistemləşdirilmiş və faktlara əsaslanan məlumatlar əldə edirik".

Dünya tarixində qətliamlar, soyqırımları çox olmuşdur. Ümumbəşəri dəyərlərə qarşı törədilmiş cinayətlər Azərbaycan xalqından da yan keçməmişdir. Elə təkcə XX əsrdə iki dəfə – 1918-ci ildə mart qırğınları və 1992-ci ildə Xocalı dəhşətləri xalqımızın başına gətirilmişdir. Bu hadisələrə hüquqi və siyasi qiymət vermək, əlbəttə, nüfuzlu beynəlxalq təşkilatların vəzifəsidir.

Bu il Azərbaycan Prezidenti İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında sərəncam imzalayıb. Sənəddə ermənibolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasının vacib olduğu qeyd edilib. Anar Turanın haqqında söz açdığımız əsəri məhz dövlət başçımızın sərəncamında qarşıya qoyulmuş vəzifələrin icrası baxımından təqdirəlayiqdir.

Kitab ölkə vətəndaşları ilə yanaşı, beynəlxalq auditoriyanın da ermənilərin xarici havadarlarının dəstəyilə son bir əsrdə azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər barədə məlumatlılığını artıracaq, həmçinin beynəlxalq ədalətin təmin olunmasına öz töhfəsini verəcək.

Kitabın məsləhətçisi Efiopiyanın Azərbaycandakı fəxri konsulu, "Soyqırımı Həqiqətlərinin Tanıdılması" İctimai Birliyinin sədri Ceyhun Ələkbərov, redaktoru Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elməddin Behbuddur.

Araşdırma geniş oxucu kütləsi, xüsusilə tələbələr, müəllimlər, media mənsubları, tədqiqatçılar və əcnəbi ölkələrin təmsilçiləri üçün nəzərdə tutulub.

Əliqismət BƏDƏLOV,
"Xalq qəzeti"

Salyan: uğurlar xoş ovqat yaradır

❒ ***Əvvəllər hər dəfə "əhvalım yaxşıdır" mənasını verən "yerim Salyandır" ifadəsini eşidəndə təəccüblənirdim. Salyanlıların tez-tez işlətdikləri, az qala zərb-məsələ çevrilmiş bu deyimin hərfi mənasını (necə yəni, yerim Salyandır, olsun da burada nə var ki...) deyil, ehtiva etdiyi anlamı özüm üçün yəqinləşdirməyə çalışırdım.***

Hamı bilir ki, Salyanın təbiəti dağ, meşə, yaşıllıq sarıdan kasaddır. Bunlar yoxdursa, ortada Kürün əsrarəngiz və füsunkar mənzərəsi qalır. Hələ bu da sualın tam cavabı deyil. Onda Salyanı rahat məkana çevirən nədir?

Deyəsən, tapmışam...Dünyaya göz açandan ana Kürün həzin, şirin pıçıltıları ilə boya-başa çatan salyanlıların çox səmimi, qonaqpərvər insanlar olmaları tamamilə təbiidir. Bu yurdun adamlarına həm də Allahın yaratdığı hər şeyə sevgilə yanaşmaq duyğusu xasdır.

Salyanlılar həm də çox zəhmətsevərdirlər. Yəni, bir jurnalist olaraq, belə yaxşı insanların arasında olmaqdan, onların uğurlarından, arzu və diləklərindən yazmaqdan gözəl nə ola bilər ki?!

Əhalinin rifahı yüksəlib

Bu dəfə Salyana ilin son günlərində gəlmişdim. Narın yağış təzəcə kəsmişdi. Kür tərəfdən sərin meh əsirdi. Şəhərin mərkəzi parkında rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyevlə rastlaşdım. Xeyli söhbət etdik.

Əvvəlcə düşündüm ki, Allahverdi müəllim havanın yağıntılı keçməsindən gileylənəcək. Əksinə dedi ki, bu yağış göylərin nemətidir, o, Muğan torpağına xeyir-bərəkət gətirir.

Sonra söhbət ölkəmizdə son illər əldə edilən uğurlardan düşdü. Həmsöhbətim bu məqamda ürəkdolusu dedi:

– Azərbaycanda hazırda bütün sahələrdə sürətli inkişaf, tərəqqi baş verir. Mən bu gün müstəqil ölkənin vətəndaşı, ziyalısı olaraq, özümü xoşbəxt sayıram. Ona görə ki, Vətənimin hər yerində inkişaf və tərəqqi görürəm. İnsan üçün bundan böyük səadət ola bilərmi?! Hesab edirəm ki, Azərbaycanın uğurlarının kökündə, ilk növbədə düzgün idarəçilik, xalqla iqtidarın sarsılmaz birliyi dayanır. Əminəm ki, Prezident İlham Əliyevin müdrik liderliyi sayəsində qarşıdakı illərdə ölkəmizin uğurları daha da artacaq.

Allahverdi müəllim sözünün davamında dedi ki, indi ölkəmizin hər bir bölgəsi kimi, son illər Salyan rayonu da sürətlə inkişaf edir. Ən başlıcası, rayon əhalisinin rifahı, güzəranı çox yaxşılaşıb. Salyanlıların hər biri dövlətimizin, şəxsən möhtərəm Prezidentimiz İlham Əliyevin daxili və xarici siyasətindən çox razıdır.

Abadlıq və quruculuq işləri vüsət alıb

Cəsarətlə demək olar ki, hazırda Salyan ölkəmizin ən gözəl rayon mərkəzlərindən biridir. Son illər burada aparılan abadlıq-quruculuq işlərinin həcmi və vüsəti diqqəti cəlb edir. Maraqlı cəhət həm də budur ki, bütün bu işlər böyük zövqlə, səliqə-sahmanla görülür. Rayon icra hakimiyyəti başçısı aparatı memarlıq və tikinti şöbəsinin müdiri, rayonun baş memarı Teyyub Hüseynov dedi ki, rayon mərkəzində və kəndlərdə tez-tez keçirilən abadlıq-quruculuq işlərinə sakinlər də cəlb olunurlar.

T.Hüseynov sonra məlumat verdi ki, Prezident İlham Əliyevin 4 oktyabr 2018-ci il tarixli, 519 nömrəli "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq Salyan rayonunda ümumi sahəsi 1750 kvadratmetr olan 2 binanın dam örtüyünün dəyişdirilməsi nəzərdə tutulub. Sərəncamın icrası ilə əlaqədar olaraq Salyan şəhərinin Ə.Quliyev küçəsi 12 və 28 May küçəsi 55 saylı ünvanında yerləşən beşmərtəbəli binaların dam örtüklərinin təmiri nəzərdə tutulub. Təmir işləri ilə əlaqədar hazırlıq işlərinə başlanılıb.

Bundan başqa, şəhərin 38 kommunal binasında əsaslı təmir işləri görülüb, binaların fasadında qopmuş aqlay üzlük plitələri yenisi ilə əvəz edilib, fasad və bloklarda köhnə suvaq qatı sökülərək suvanmış divarlar emulsiya ilə rənglənib, su-kanalizasiya xətləri dəyişdirilib.

Yeni yollar, körpülər salınıb

Son illər Azərbaycanın əksər rayonlarında yol infrastrukturu sürətlə inkişaf edir. Belə bölgələrdən biri də Salyandır. Bir vaxtlar Arbatan kəndinin yolu bərbad gündə idi. Kənd sakini Mətləb Hüseynov dedi ki, indi bura gözəl və rahat yol çəkilib.

Son aylara qədər Seyidsadıqlı kənd yolunun "cəfası"ndan dilə gələnlər çox olub. Son vaxtlar bu kəndə də rahat yol çəkilib. Seyidsadıqlı kənd sakini Gülsüm Nağıyeva da təzə yoldan çox razılıq etdi.

Salyan RİH-də bildirdilər ki, rayonda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində uğurlu tədbirlər görülüb. Belə ki, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu istifadəyə verilmiş, 16 kilometr uzunluğunda Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda, 45 kilometr uzunluğunda Salyan-Neftçala avtomobil yolunda və Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 kilometr hissəsində tikinti işləri başa çatdırılmışdır.

Məhsul istehsalı artıb

Salyan ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir. Son illər rayonda aqrotexniki tədbirlərin düzgün həyata keçirilməsi hesabına, demək olar ki, bütün sahələrdə məhsul istehsalı artmışdır.

Bu il rayonda 7055 hektar torpaq sahəsində pambıq əkilmiş, bu vaxtadək sahələrdən 11 min tondan çox məhsul toplanmışdır. Pambıq əkini aparılmış sahələrdə 5995 nəfər işlə təmin olunmuşdur.

Ərəbqardaşbəyli kənd sakini, qabaqcıl fermer İbadət Cəfərov dedi ki, rayon fermerləri pambıqçılığa böyük maraq göstərirlər. Şəxsən İbadətin başçılıq etdiyi fermer təsərrüfatının üzvləri bu il 65 hektar sahədə pambıq çiyidi əkmiş, düzgün aqrotexniki qulluq apararaq 220 ton məhsul toplamışlar. Bir hektarın məhsuldarlığı 34 sentner təşkil etmişdir.

2018-ci ilin məhsulu üçün 16813 hektar sahədə taxıl, bundan 8348 hektar buğda, 8465 hektar arpa, 4039 hektar sahədə təzə yonca, 660 hektar sahədə dən üçün qarğıdalı, 420 hektar sahədə kartof, 1241 hektar sahədə tərəvəz, 822 hektar sahədə isə bostan məhsullarının əkini aparılmışdır. Ümumilikdə, 16813 hektar taxıl sahəsindən 54,3 min ton məhsul toplanmışdır.

Yeni istehsal müəssisələri yaradılıb

Salyanda son illər sahibkarlığın inkişafına hər cür qayğı göstərilir. Məhz bu qayğının nəticəsidir ki, rayonda yeni istehsal müəssisələrinin yaradılması sürətlənib. Salyan Statistika İdarəsində öyrəndim ki, 2018-ci ildə rayona cəlb edilmiş investisiyalar hesabına 28 istehsal, xidmət və iaşə obyektinin tikintisi başa çatdırılmış, 207 yeni iş yeri yaradılmışdır.

Məsələn, Həsənli kəndi ərazisində 100 min başlıq damazlıq quşçuluq təsərrüfatının, Kürsəngi kəndi ərazisində istixana kompleksinin, şəhər ərazisində pivə və limonad istehsalı zavodunun və ikimərtəbəli "Bazar-ticarət mərkəzi"nin tikintisi əsasən başa çatdırılmışdır.

Rayonun Xıdırlı kəndi ərazisində zeytun və meyvə emalı zavodları istifadəyə verilmişdir. Bu müəssisələrin tikintisi məhsul istehsalının artımı ilə yanaşı, yüzdən artıq yeni iş yerinin yaranmasına səbəb olmuşdur.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin doqquz ayında 725-i daimi olmaqla, 6856 yeni iş yeri yaradılmışdır.

Rayonda əhalinin içməli su, elektrik enerjisi, təbii qazla təchizatı yaxşılaşmışdır.

PS. Bu dəfə Salyanda hara getdimsə, hansı kollektivdə oldumsa, kimlə görüşdümsə, hər yerdə qurub-yaratmaq əzmi, hər kəsi xoş ovqatda gördüm. Müşahidələrimi Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov ilə bölüşəndə, həmsöhbətim fəxrlə dedi ki, qədirbilən Salyan camaatı bundan sonra da dövlətimizin, şəxsən möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanın hər bir bölgəsi kimi, Salyanın davamlı inkişafına və tərəqqisinə göstərdiyi böyük diqqət və qayğıya əməli işlərlə cavab verməyə çalışacaq.

Səməd HÜSEYNOĞLU,
"Xalq qəzeti"nin
bölgə müxbiri

Mənziliniz mübarək!

❒ ***Bu günlərdə Abşeron rayonunda Qubadlıdan olan köçkünlər üçün salınan yaşayış kompleksinin açılışı oldu. Yüzlərlə ailənin sevincinə səbəb olan açılış mərasiminə toplaşanların üzündə şadyanalıqdan əlavə gələcəyə inam, ümid, nikbinlik hiss olunurdu. Onlar bu şəraiti köçkünlərə yaradan Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ümid dolu nəzərlərlə baxırdılar. Bu da təbii idi...***

Dövlət başçısının Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərilən böyük diqqətidir.

Hələ 2017-ci ildə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirədə qəzalı və yararsız binalarda məskunlaşan insanların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlar vermişdi. İki ay sonra Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu və Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Həmçinin Binəqədi rayonu, 9-cu mikrorayondakı Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasında məskunlaşan məcburi köçkün ailələri Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə köçürüldü.

Açılışı iki gün öncə olan, böyük ərazidə yerləşən şəhərcikdə iyirmidən artıq çoxmərtəbəli yaşayış binası inşa edilməklə yanaşı, həm də uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik gözəl məktəb tikilib və yaşamaq üçün normal şərait yaradılıb.

Cənab Prezident son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atıldığını, üç yüz minə yaxın köçkünün yeni mənzillərlə, fərdi evlərlə təmin edildiyini, bu məqsədlər üçün dövlətin çox böyük vəsait xərclədiyini açılış mərasimində çıxış edərkən xüsusi vurğuladı və bildirdi ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır.

Qeyd edək ki, bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilərək istifadəyə verilib. Hər il minlərlə köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin ediliblər. Dövlət başçısının məqsədi budur ki, bütün köçkün ailələri normal şəraitlə təmin olunsunlar.

Bu il də bir neçə yerdə köçkünlər üçün yeni şəhərciklər salınıb. Ötən il işğaldan azad edilmiş Cocuq Mərcanlıda köçkün qəsəbəsinin açılışı yaxşı yadımdadır. Öncə 50 ev tikilərək sakinlərin istifadəsinə verildi. Bu il isə əlavə 100 evin tikilməsi başa çatdırıldı. Bu analoqu olmayan tarixi hadisədir. Çünki uzun fasilədən sonra Cocuq Mərcanlıda həyat yenidən canlanmağa başladı, kəndin sakinləri öz yurdlarını abadlaşdırmağa başladılar. 150 evdən ibarət qəsəbənin yenidən qurulması onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Bunu görən hər köçkün də tezliklə öz doğma torpağına qayıdıb oranı abadlaşdırmaq arzusu ilə yaşayır. Çünki uzun illər başqa yerlərdə yaşamış Cocuq Mərcanlı sakinlərinin öz doğma kəndlərinə üz tutduqlarına şahid oldular. Hamı gördü ki, hətta Cocuq Mərcanlını görməyən uşaqlar, yeniyetmələr böyük həvəslə o kəndə dönüb, doğma torpaqda öz həyatlarını qurdular.

Yeni kompleksdə layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir. Bu rəqəmin arxasında dövlətin bu kateqoriyadan olan insanlara doğma münasibəti aydın görünür.

Şəhərcikdəki mənzillərin ümumi sahəsi 76 min kvadratmetr olmaqla, 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin hamısı təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin ediləcəklər.

Arzu BAĞIROVA,
"Regional Hüquqi və İqtisadi
Maarifləndirmə" İctimai Birliyinin sədri

❒ ***Azərbaycan vətəndaşları yeni, 2019-cu ilə böyük arzular və ümidlərlə qədəm qoyur. Məlum olduğu kimi, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev tərəfindən təsdiq olunub. Əvvəlki büdcə kimi, yeni büdcənin, ilk növbədə, sosialyönümlü səciyyə daşıması ölkə ictimaiyyəti, ziyalılar tərəfindən dərin rəğbətlə qarşılanıb. Bu barədə söz düşəndə Azərbaycan Turizm və Menecment Universitetinin professoru Minaxanım Əsədli dedi:***

İllər bir-birindən uğurlu gəlir

– Mən rəsmi qəzetlərin səhifələrində 2019-cu ilin büdcəsinin əsas göstəriciləri ilə tanış olanda çox məmnun oldum. Hesab edirəm ki, sənəd ölkəmizin qarşıdakı ildə də sürətli iqtisadi inkişafı üçün real imkanlar açır.

Təqdirəlayiq haldır ki, gələn ilin büdcəsində müdafiə və təhsil sahələrinə dövlət tərəfindən əvvəlki illərdə olduğundan daha çox sərmayə qoyulacaq. Bu, düzgün yoldur. Çünki hər iki sahə dövlətimizin, xalqımızın taleyi üçün strateji əhəmiyyət kəsb edir.

Bu məqamda bir anlıq xalqımızın son bir neçə onillər ərzində keçdiyi çətin, şərəfli yola nəzər salmaq istərdim. Müstəqil Azərbaycanın zəfər salnaməsi ulu öndər Heydər Əliyevin 1993-cü ilin yayında xalqın israrlı təkidi ilə siyasi hakimiyyətə qayıdışından sonra başlayıb. Bu, bir həqiqətdir ki, dahi siyasətçi dərin zəkası və qeyri-adi qətiyyəti ilə həyatından çox sevdiyi Azərbaycanı o illərdə üzləşdiyi ağır təhlükələrdən xilas edərək sivil, demokratik inkişaf yoluna çıxardı.

Əlamətdar haldır ki, ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin müdrik liderliyi ilə son 15 ildə Vətənimiz başqa ölkələrin az qala bir əsrdə keçə biləcəyi qədər tərəqqi yolu keçmişdir. Bu gün Azərbaycan nəinki regionda, dünya siyasətində xüsusi çəkisi və böyük nüfuzu olan bir dövlətdir.

Bəli, Azərbaycan heç vaxt hazırda olduğu qədər güclü və qüdrətli olmamışdır. Ölkəmizin uğurlarının kökündə düzgün idarəçilik, ən başlıcası, xalqla iqtidarın sarsılmaz birliyi dayanır.

Xalqımız üçün illər bir-birindən uğurlu gəlir. Yeni ilə isə cəmi bir gün qalır. Tamamilə əminəm ki, 2019-cu il də xalqımız, dövlətimiz üçün yeni uğurlar və yeni zəfərlər ili olacaq.

Söhbəti qələmə aldı:
M.HACIXANLI,
"Xalq qəzeti"

Sosial siyasətin uğurlu nəticəsi

❒ ***İstər ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, istərsə də möhtərəm Prezidentimiz İlham Əliyevin hakimiyyəti illərində qaçqın və məcburi köçkün ailələrinə qayğı daim diqqət mərkəzində olub, onların sosial müdafiəsini gücləndirmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilib.***

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı mərasimi də bunun bariz ifadəsidir.

Xatırladım ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Şəhid ailələri və əlillərə avtomobillər verilib. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılıb və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilib.

Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verib. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Qeyd etmək yerinə düşər ki, bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən də çox yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev çıxışlarının birində bu siyasətin bundan sonra da davam etdiriləcəyini xüsusi vurğulayıb: "Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir. Biz imkan daxilində bu məsələləri həll edirik. Deyə bilərəm ki, işğaldan və etnik təmizləmədən əziyyət çəkmiş dövlətlər arasında Azərbaycanda bu sahədə görülən işlər ən yüksək səviyyədədir. Bunu beynəlxalq təşkilatlar da, BMT də qeyd edir və Azərbaycan təcrübəsi bir çox ölkələr üçün nümunə kimi göstərilir. Bəlkə də dünyada öz vətəndaşlarına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir. Bu siyasət davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bu gün növbədə duran bu kateqoriyadan olan bütün insanlar imkan daxilində mənzillərlə, evlərlə, maşınlarla təmin ediləcəklər".

Son olaraq demək istərdim ki, Prezident İlham Əliyevin, göründüyü kimi, qaçqın və məcburi köçkün ailələrinə böyük qayğı göstərməsi, əslində, dövlət başçısının idarəetmədə 15 il ərzində həyata keçirdiyi siyasətin mahiyyətindən irəli gəlir. Azərbaycanın əldə ediyi möhtəşəm uğurların təməlində də məhz bu prinsip – insan amilinə yüksək dəyər verilməsi dayanır.

Azər VERDİYEV,
Qlobal Araşdırmalar Liqası İctimai
Birliyinin sədri, politoloq

Metro stansiyalarında Yeni il şənliyinə start verilib

❒ ***Dekabrın 29-dan etibarən metro stansiyalarında 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbirlərə start verilib.***

Trend-in məlumatına görə, Şaxta baba və Qar qız metronun kiçik sərnişinlərinə müxtəlif hədiyyələr, oyuncaqlar hədiyyə edib.

Tədbirə "İçərişəhər" metrostansiyasından start verilib. Şaxta baba və Qar qız bu stansiyaya "Bakmil"dən retro vaqonla gəliblər. Şaxta baba obrazında ötən ildən fərqli olaraq tanınmış

gülüş ustası Allahverdi Yolçuyev olub.

Yeni il personajları "İçərişəhər" stansiyasından "Həzi Aslanov" stansiyasına qədər balaca sərnişinləri sevindirib.

Qeyd edək ki, Şaxta baba və Qar qız dekabrın 31-dək saat 10:00-dan 12:00-dək stansiyalarda olacaq.

Həmçinin stansiyalarda bayram konsertləri də təşkil ediləcək. Tədbirlər yanvarın 2-dək davam edəcək.

İmişlidə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilib

❒ ***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən İmişli rayonunda inşa etdirilmiş 6 mərtəbəli 54 mənzilli yaşayış evi şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilib.***

Yeni mənzillərin sənədlərinin təqdim olunması mərasimində ƏƏSMN Aparatının rəhbəri Hidayət Abdullayev vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə mühüm tarixi nailiyyətlər qazandıran uğurlu sosial-iqtisadi siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahının yüksəldilməsi prinsipi dayanır. O, sosial cəhətdən həssas əhali qruplarına daim qayğı ilə yanaşıldığını qeyd edərək, mühüm proqramların uğurla davam etdirildiyini və daha da gücləndirildiyini diqqətə çatdırıb. Bildirib ki, belə sosial proqramlardan biri də ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, onların yeni mənzillərlə təminatına xidmət edir.

Şəhid ailələrinin müasir tələblərə uyğun yeni mənzillərlə təminatı sahəsində nazirlik tərəfindən cari ildə görülən işləri qeyd edən H.Abdullayev bildirib ki, dövlət başçısının şəhid ailələri və

Qarabağ müharibəsi əlillərinə xüsusi qayğısı bu kateqoriyalardan olan insanların mənzillə təminatı proqramının yüksək səviyyədə yerinə yetirilməsinə səbəb olub. Azərbaycan Prezidentinin sərəncamına əsasən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün cari ildə əlavə olaraq ən azı 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə ƏƏSMN tərəfindən nəzərdə tutulduğundan 3 dəfə çox, yəni 626 mənzilin həmin insanların istifadəsinə verilməsinə səbəb olub.

Yeni mənzillərlə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlilləri dövlət qayğısına, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində onları yeni mənzillərlə sevindirdiyinə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Zərifə BƏŞİRQIZI,
"Xalq qəzeti"

Qubadlıların bayram tədbiri

❒ ***Sumqayıt şəhərindəki "Bəyaz saray" şadlıq evində Qubadlı Rayon İcra Hakimiyyəti və AzTV-nin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təntənəli tədbir keçirilmişdir.***

Bayram tədbiri açıq elan edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Malik İsaqov təbrik nitqi söylədi. Qeyd etdi ki, 2018-ci ildə respublikamızın regional və beynəlxalq əhəmiyyəti daha da artmış, xalqımızın rifahı yüksəlmişdir. Qürur hissi ilə demək lazımdır ki, rayonumuzun əhalisi də bu prosesdə fəal iştirak etmişdir.

Məcburi köçkün ailələri üçün Abşeron rayonu ərazisində və Sumqayıtdakı 12-ci mikrorayonda 2000-dən artıq ailə üçün nəzərdə tutulmuş yeni şəhərciklərin açılış mərasimi keçirilmişdir. Mərasimdə ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər.

Yaxın günlərdə məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi planlaşdırılmışdır. 2018-ci il ərzində əhalimizin aztəminatlı hissəsi, şəhid ailələri diqqətdə saxlanılmışdır. Rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinə, digər kateqoriyadan olan aztəminatlı ailələrə yardımlar edilmişdir. Eyni zamanda, Qurban bayramı münasibətilə 700-dən çox ailəyə ərzaq yardımı edilmişdir. Cari il ərzində 180 yeni iş yeri açılmışdır. Ümumiyyətlə, son 15 ildə rayon üzrə yeni yaradılan iş yerlərinin sayı 3 min 885-ə çatdırılmışdır.

Qeyd olundu ki, cari tədris ilində XI sinifləri bitirən 457 nəfərin 390 nəfəri ali məktəblərə sənəd vermiş, onların 285 nəfəri tələbə adını qazanmışdır. Qəbul olunanların 27 nəfəri 600-700 arası bal toplamışdır. Rayon gəncləri, o cümlədən idmançılar müxtəlif sahələrdə bir sıra əhəmiyyətli yarışlarda uğurlar qazanmışlar. Rayon icra hakimiyyətinin təşəbbüsü və yaxından köməyi ilə 8 Mart Beynəlxalq Qadınlar Günü, Novruz bayramı şənliyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü, Milli Qurtuluş Günü, Xalq Cümhuriyyətinin 100 illiyi, Beynəlxalq Müəllimlər Günü və Vətənin azadlığı uğrunda canlarından keçmiş qəhrəmanların anım mərasimləri münasibətilə keçirilən tədbirlər əhatəliliyi və rəngarəngliyi ilə fərqlənmiş, rayon əhalisi tərəfindən razılıqla qarşılanmışdır.

Tədbirdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə rayon icra hakimiyyəti başçısı tərəfindən 9 nəfərə fəxri fərman təqdim olunmuşdur.

Daha sonra Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2 nəfərə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı və 3 nəfərə fəxri fərman təqdim edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 4 nəfər rayon idmançısı fəxri adlarla təltif olunmuşdur.

Sonra tədbir respublikanın tanınmış mədəniyyət və incəsənət işçilərinin iştirakı ilə təşkil olunmuş konsert proqramı ilə davam etdirilmişdir.

M.MÜKƏRRƏMOĞLU,
"Xalq qəzeti"

Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarı

❒ ***Dekabrın 29-da Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarının Gəncə şəhərində rəsmi qarşılanma mərasimi olub.***

Qarşılanma mərasimində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış ediblər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov deyib ki, bu gün yalnız Gəncə şəhərinin deyil, bütövlükdə ölkəmizin həyatında əlamətdar hadisədir: "Bu sürət qatarının istifadəyə verilməsi Prezident İlham Əliyevin Gəncəyə olan diqqətinin növbəti bariz nümunəsidir. Gəncə Qafqazın ən gözəl şəhərlərindən biridir. Dünyanın ən yüksək standartlarına cavab verən beynəlxalq hava limanı, yeni yollar, təhsil ocaqları Gəncədəki inkişafın göstəricisidir. Bu gün isə onların sırasına biri də əlavə olundu. Biz çox sevinirik ki, belə sürət qatarı məhz Gəncə istiqamətində istifadəyə verilib".

Qeyd edək ki, Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarı dekabrın 29-da səhər saat 09:00-da yola düşüb və 4 saat sonra Gəncəyə çatıb.

Xırdalanda körpələr evi-uşaq bağçası təmirdən sonra istifadəyə verilib

Burada Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar bayram şənliyi keçirilib

❒ ***Xırdalanda 110-dan çox uşaq üçün nəzərdə tutulan bağça binası əsaslı şəkildə təmir olunub. Qeyd edək ki, 1964-cü ilə kimi fəhlə yataqxanası, sonralar isə bağça kimi istifadə olunan binada sonuncu dəfə 2006-cı ildə cari təmr işləri aparılıb.***

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova əsaslı təmirdən sonra istifadəyə verilən uşaq bağçasında yaradılan şəraitlə tanış olub. Binanın foyesində ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb.

Burada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların istirahətini yüksək səviyyədə təşkil etmək üçün hər cür şərait var.

Müəssisənin həyətində abadlıq və quruculuq işləri görülüb, ərazi asfaltlanıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Bağçanın həyətində xüsusi istirahət guşəsi də yaradılıb.

Bağça ilə tanışlıqdan sonra İ.Gülməmmədova Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə burada uşaqlar üçün hazırlanmış bayram şənliyində iştirak edib, qarşıdan gələn yeni il münasibətilə bütün balaları təbrik edib, onlara ən səmimi arzularını bildirib. Qeyd edib ki, "Uşaqlar bizim gələcəyimizdir", - deyən ümummilli lider Heydər Əliyevin uşaqlara olan sonsuz diqqət və qayğısı bu gün ölkə Prezidenti möhtərəm İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, bu gün müstəqil Azərbaycanın uşaqlarının özlərini dünyanın ən xoşbəxt uşaqları hesab etməyə haqları var.

Xatırladaq ki, son 10 ildə təkcə Abşeron rayonunda 50-dən çox məktəb və bağça tikilərək istifadəyə verilib.

Səməd HÜSEYNOĞLU,
"Xalq qəzeti"nin
bölgə müxbiri

Xarici xəbərlər

ABŞ

"Facebook" etimadı itirir

"Toluna" analitik qrupunun onlayn keçirdiyi sorğu nəticəsində "Facebook" sosial şəbəkəsi texniki şirkətlərin antireytinqində lider olub. Sorğuda min nəfər iştirak edib. Qeyd edək ki, "Facebook" istifadəçilərin məlumatlarının saxlanmasındakı boşluqlara görə antireytinq ünvanını qazanıb.

Xəbəri "Ferra.ru" verib.

Di Kaprionun malikanəsi satılır

Amerikalı aktyor, Hollivud ulduzu Leonardo Di Kaprio ilk evini satır. Aktyor bu malikanəni "Titanik" filmindəki baş rola görə qazandığı qonorar hesabına alıb. 1931-ci ildə ispan memarlığı üslubunda inşa edilmiş evin satış qiyməti 1,7 milyon dollardır.

Məlumatı BBC yayıb.

Rusiya

İdxal ikiqat artırılır

Rusiya Türkiyədən illik pomidor idxalını ikiqat artıracaq. Belə ki, Rusiya Kənd Təsərrüfatı Nazirliyi illik idxalın 50 min tondan 100 min tonadək artırılmasına dair qərar verib. Xatırladaq ki, 2015-ci ildə iki ölkə arasında münasibətlər sərinləşən zaman Rusiya Türkiyədən pomidor idxalını tamamilə dayandırmışdı.

Xəbəri "Anadolu" agentliyi verib.

Braziliya

Nadir növün nəsli kəsilməyib

Braziliyada bir neçə ay aparılan axtarışlardan sonra planetin ən nadir quş növlərindən biri yenidən aşkar olunub. Merulaxis stresemanni adlı ekzotik nadir quşun nəslinin kəsilməsi haqqında yayılan xəbərlərin yanlış olduğu üzə çıxıb. Alimlər qeyd edirlər ki, həmin nadir növün uzun quyruğu, orta ölçüsü, alnında xarakterik kəkili və özünəməxsus qeyri-adi oxumağı var.

Məlumatı RİA "Novosti" yayıb.

İspaniya

"Real" müdafiəni gücləndirir

Madridin "Real" futbol klubu "Mançester Siti"nin 19 yaşlı yarımmüdafiəçisi Brahim Diazı transfer edib. Bildirilir ki, məqsəd müdafiədəki boşluğu doldurmaqdır. Transfer "Real"a 15 milyon avroya başa gəlib.

Qeyd edək ki, ispan futbolçu peşəkar karyerasına 2016-cı ildə "Mançester Siti"də başlayıb.

Məlumatı "Marca" yayıb.

Hazırladı:
Elçin ABBASOV,
"Xalq qəzeti"

Rusiya Ukraynanın sanksiyalarına cavab verdi

❒ ***Rusiyanın Baş naziri Dmitri Medvedev Ukraynanın sanksiyalarına cavab olaraq bu ölkəyə qarşı yeni məhdudiyyətlərin tətbiqi ilə bağlı qərar verib. Bu barədə hökumətin twitterində məlumat yerləşdirilib. İnformasiyanı TASS yayıb.***

"Rusiya Ukraynadan alınan bir sıra mallara qadağa tətbiq edir. Bunlar Ukraynanın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara cavabdır. Bununla bağlı qərarı imzaladım", – deyə Medvedev yazıb.

Qadağa tətbiq olunmuş malların siyahısı hələ dərc edilməyib. Rusiya hökumətinin bəyanatına əsasən, indiyədək Ukraynadan alınan sənaye, kənd təsərrüfatı və ərzaq mallarına məhdudiyyət tətbiq olunacaq.

Bununla yanaşı, bildirilir ki, əgər Ukrayna tərəfi tətbiq etdiyi məhdudiyyətləri ləğv edərsə, Rusiya da sanksiyalardan imtina edə bilər.

Qeyd edək ki, Rusiya əvvəllər də Ukrayna şirkətlərinə və fiziki şəxslərinə qarşı məhdudiyyətlər tətbiq edib. O vaxt sanksiya siyahısına 245 Ukrayna vətəndaşı və 7 hüquqi şəxs daxil edilib. Sonradan siyahının genişləndirilməsi nəticəsində məhdudiyyətlə üzləşmiş fiziki şəxslərin sayı 567 nəfərə, hüquqi şəxslərin sayı isə 75 nəfərə çatdırılmışdı. Medvedev təsdiq etmişdi ki, bu qərar Rusiya dövləti və xalqının maraqlarını qorumaq üçün qəbul edilib.

Onu da xatırladaq ki, Ukraynanın hakimiyyət orqanları Rusiya vətəndaşları və fiziki şəxslərinə qarşı sanksiyaları dekabrın 26-da elan edib, ancaq bu məhdidiyyətlərə məruz qalmış şəxslərin siyahısı hələ dərc edilməyib.

Paşa ƏMİRCANOV,
"Xalq qəzeti"

Suriyadakı vəziyyət müzakirə olunub

❒ ***Prezident Vladimir Putinin sədrliyi ilə Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının (TŞ) üzvləri Suriyadakı hadisələrin gedişatını müzakirə ediblər. Məlumatı Rusiya dövlət başçısının mətbuat katibi Dmitri Peskova istinadən TASS agentliyi yayıb.***

İclasda bəzi ölkədaxili sosial-iqtisadi məsələlərlə yanaşı, bir sıra mühüm beynəlxalq mövzular, o cümlədən Suriyadakı vəziyyət müzakirə olunub.

D.Peskovun sözlərinə görə, son günlər Suriya Silahlı Qüvvələrinin nəzarətində olan ərazilərin genişlənməsinin davam etdirilməsi müsbət hal kimi qeyd olunub.

Yeri gəlmişkən, dünən Suriyadakı mövcud vəziyyəti müzakirə etmək üçün Rusiya paytaxtına Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar, Milli Kəşfiyyat İdarəsinin rəhbəri Hakan Fidan, eləcə də Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalındandan ibarət nümayəndə heyəti gəlib.

Məlumat üçün bildirək ki, bu il dekabrın 25-də Əsəd rejiminin hərbi dəstələri Suriyanın şimalındakı Münbiç rayonunun bir hissəsini ələ keçirilib. YPG terrorçuları hökumət qüvvələri ilə əlbir fəaliyyət göstəriblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məsələ ilə bağlı deyib ki, Suriya hökumətinin bu addımı regiondakı hadisələrə psixoloji təsir göstərmək cəhdidir.

Dövlət başçısı vurğulayıb ki, Ankaranın Suriyada yeganə məqsədi PKK terror təşkilatının Suriya törəməsi olan YPG təhlükəsinin qarşısını almaqdır. Türkiyə Prezidenti, həmçinin qeyd edib ki, onun ölkəsi Suriyanın parçalanmasının əleyhinədir. Əgər terrorçular ərazidən qovulsalar, Türkiyənin Suriyada fəaliyyətinə ehtiyac qalmaz.

M.HACIXANLI,
"Xalq qəzeti"

İtaliya Səudiyyə Ərəbistanına silah satışını dayandıra bilər

❒ ***2018-ci ilin yekunlarına həsr olunan mətbuat konfransı zamanı İtaliyanın Baş naziri Cuzeppe Konti Səudiyyə Ərəbistanına silah satışını dayandırmaq niyyətində olduqlarını bildirib. Bu barədə RİA "Novosti" məlumat yayıb.***

Mənbə qeyd edir ki, Baş nazir bu qərarın Yəməndəki müharibə və İstanbulda səudiyyəli jurnalist Camal Qaşıqçının qətlə yetirilməsi ilə bağlı olduğunu açıqlayıb. "Bu məsələnin gündəmdə olduğunu təsdiq edirəm. Bunun hansı nəticələrə gətirib çıxara biləcəyini araşdırır, müdafiə naziri, xarici işlər naziri və Baş nazirin müavini Luici di Mayo ilə düşünüb-daşınırıq. O da bir sıra məlumatlara böyük maraq göstərir. Tezliklə məsələyə dair qənaətə gələcəyik", - deyə hökumət başçısı qeyd edib.

Baş nazir, həmçinin ayın əvvəlindəki G-20 zirvə görüşü zamanı Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla söhbətində jurnalistin qətlə yetirilməsi ilə bağlı tam həqiqəti üzə çıxardaraq beynəlxalq hüquq normaları əsasında məsələyə dair hərtərəfli məhkəmə istintaqının aparılmasını Avropa dövlətləri adından tələb etdiyini dilə gətirib.

"Yaxın həftələr ərzində qərar verəcəyik. Silah satmağa tərəfdar deyilik, bu qərarı, sadəcə, rəsmi çərçivəyə salmaq qalır", - deyə İtaliyanın hökumət başçısı vurğulayıb.

Rövşən ATAKİŞİYEV,
"Xalq qəzeti"

Bill Anders Marsa pilotlu uçuşun əleyhinədir

❒ ***"Bloomberg" agentliyinin yaydığı məlumata görə, 1968-ci ildə "Apollon-8" kosmik gəmisinin heyətində ilk dəfə Ayın orbitinə uçan amerikalı kosmonavt Bill Anders Marsa pilotlu missiya göndərilməsinin əleyhinə çıxıb və bunu "səfehlik" adlandırıb.***

Mənbə yazır ki, 85 yaşlı astronavt ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) və milyarderlər İlon Mask və Ceff Bezosun "qırmızı planet"in tədqiqi planlarını da sərt tənqid edib.

Lakin "Apollon-8" kosmik gəmisində Andersin komandiri olmuş Frenk Borman həmkarının fikirləri ilə razı olmadığını bildirib. O hesab edir ki, NASA-nın Marsın tədqiqi ilə bağlı atdığı addımlar düzgündür və Günəş sisteminin daha ətraflı öyrənilməsinə, həmçinin "qırmızı planet"ə astronavt göndərilməsinə ehtiyac var.

Qeyd edək ki, Borman da İlon Mask və Ceff Bezosun Marsda koloniyalar yaradılması planlarını tənqid edib və bunun cəfəngiyyatdan başqa bir şey olmadığını dilə gətirib.

Mahmud QƏRİBOV, "Xalq qəzeti"

Qrossmeyster Məmmədyarov dünya çempionatının gümüş mükafatçısıdır

❒ ***Azərbaycan şahmatının lideri Şəhriyar Məmmədyarov yeni il ərəfəsində xalqımızı rapid üzrə dünya çempionatının gümüş medalı ilə sevindirmişdir.***

Qrossmeysterimiz Sankt-Peterburqda yenicə başa çatmış çempionatda 15 mümkün xaldan 10,5 xal toplayaraq, 11 xalla dünya çempionu olmuş rusiyalı Daniil Dubovdan sonra ikinci yeri tutmuşdur.

Dünya çempionatının medalları uğrunda 205 şahmatçı mübarizə aparmışdır. Məmmədyarov kimi, Hikaru Nakamura (ABŞ), Vladislav Artemyev (Rusiya) , Maqnus Karlsen (Norveç) də 10,5 xal toplamış, ancaq əlavə göstəricilərə görə təmsilçimizdən geri qalmışlar.

Azərbaycanın digər şahmatçılarından Qədir Hüseynov və Rauf Məmmədov çempionatı müvafiq surətdə 9 və 8 xalla başa vurmuşlar.

Qadınların çempionatında isə 124 iştirakçı çıxış etmişdir. Qızıl medalı çinli Szyun Venszyun qazanmışdır – 12 mümkün xaldan 10 xal. Həmyerlilərimiz arasında ən yaxşı nəticəni 7,5 xalla 18-ci yeri tutan Gülnar Məmmədova göstərmişdir. Günay Məmmədzadə 7, Zeynəb və Türkan Məmmədyarovalar 5,5 xal toplamışlar.

Oqtay BAYRAMOV, "Xalq qəzeti"

Oslo muzeyindən 50 əsər yoxa çıxıb

❒ ***Norveçin paytaxtı Osloda muzeydən 50 rəsm əsəri yoxa çıxıb. Norveç rəssamı Edvard Munkun 6 rəsm əsəri də yoxa çıxıb. Muzeydə daxili axtarış başlanıb.***

Yerli KİV-lər bildiriblər ki, ötən əsrin 50-ci illərindən 90-cı illərinədək muzeydəki rəsm əsərləri yaxınlıqdakı tələbə yataqxanasında yerləşirdi. Oradan isə qiymətli rəsm əsərlərini oğurlamaq daha asan idi.

Qəzənfər QASIMOV, "Xalq qəzeti"

Hava proqnozu

➲ **Dekabrın 30-da**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 2-4, gündüz 7-10, Bakıda gecə 2-4, gündüz 8-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5, dağlıq ərazilərdə 8-10 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2-7 dərəcə şaxta , gündüz 3-7 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 6-10 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-3 dərəcə isti, yüksək dağlıq ərazilərdə gecə 12-17, gündüz 0-5 dərəcə şaxta olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-11 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2-4, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-5 dərəcə isti olacaq.

BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 7283
SİFARİŞ 3904
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00